

Milli azadlıqdan şirin nemət yoxdur!



# Başlıca hədəfimiz dayanıqlı inkişaf modelini təkmilləşdirməkdir

Bax səh. 2


YENİ AZƏRBAYCAN
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir
Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

14 fevral 2025-ci il, cümə
№ 027 (6855)
Qiyməti 60 qəpik




# Yüksək inam, sarsılmaz etimad!

Bax səh. 3

## Azərbaycan regionun nəqliyyat xəritəsini müəyyənləşdirir

Bax səh. 5



## Azərbaycan - Çin əlaqələrinə həsr olunmuş tədbir keçirilib

Fevralın 13-də Azərbaycan Dillər Universiteti nəzdində Konfutsi İnstitutunda Çin Xalq Respublikasının Azərbaycandakı səfirliyinin təşkilatçılığı ilə Azərbaycan - Çin əlaqələrinə həsr olunmuş tədbir keçirilib.

Yeni Azərbaycan Partiyasının (YAP) gənc üzvlərinin iştirakı ilə "Çin və Azərbaycan arasında Şanxay Əməkdaşlıq Təşkilatı çərçivəsində dövlətlərarası və partiyalararası əlaqələr" mövzusunda keçirilən tədbiri giriş sözü ilə açan Azərbaycan Dillər Universiteti nəzdində Konfutsi İnstitutunun direktoru, professor Rafiq Abbasov bildirib ki, Çin Xalq Respublikası ilə ikitərəfli münasibətlərin inkişaf etdirilməsi Azərbaycanın...

Bax səh. 4

## Rusiya Əsədi təhvil verəcəkmi?

Bax səh. 7

## İddia sənədi Daimi Arbitraj Məhkəməsinə təqdim edilib

Bax səh. 4

## Kitab paylaşdıqca fayda verir...

Bax səh. 8




## Terrorun və çevrilişlərin maliyyələşdirilməsi...



## Regional sülhə töhfə...

Müstəqil Azərbaycanın multiregional xarici siyasət kursu həmişə ölkəmizin milli maraqlarına və beynəlxalq səviyyədə əməkdaşlığın dərinləşməsinə, yeni çağırışlar qarşısında qlobal həmrəyliyin güclənməsinə öz töhfələrini vermək prinsipinə əsaslanıb. Prezident İlham Əliyev respublikamızın xarici siyasət prioritetlərinə növbəti dəfə yanvarın 20-də Davosda Çinin CGTN (China Global Television Network) telekanalına müsahibəsində diqqət çəkib. Qeyd edək ki, dövlətimizin başçısının müsahibəsi fevralın 11-də bu televiziya kanalında yayımlanaraq geniş tamaşaçı auditoriyasına təqdim olunub.

Azərbaycanın ardıcıllıqla həyata keçirdiyi siyasət ölkəmizin dünyanın siyasi və iqtisadi xəritəsində öz yerini tutmasını hədəfləyir. Bundan ötrü respublikamız...

Bax səh. 5



## ABŞ-ın konsulluqları bağlana bilər

Bax səh. 7

# Azərbaycan-Türkiyə əlaqələrinin bənzəri və nümunəsi yoxdur

## Prezident İlham Əliyev Türkiyənin Azərbaycanda yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 13-də Türkiyə Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Birol Akgünün etimadnaməsini qəbul edib. AZƏRTAC xəbər verir ki, səfir etimadnaməsini dövlətimizin başçısına təqdim edib. Prezident İlham Əliyev səfirlə söhbət edib. Səfir Birol Akgün Türkiyə Prezidentinin salamlarını dövlətimizin başçısına çatdırıb. Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirib, Onun da salamlarını Rəcəb Tayyib Ərdoğana çatdırmağı xahiş edib. Dövlətimizin başçısı qeyd edib ki, bu gün dünya miqyasında ən yaxın müttəfiqlər arasında belə Azərbaycan-Türkiyə əlaqələrinin bənzəri və nümunəsi yoxdur. İkitərəfli əsasda strateji müttəfiqlik səviyyəsində olan əlaqələrimizin üçtərəfli platformalarda da inkişaf etdiyini deyən Prezident İlham Əliyev bu xüsusda, Azərbaycan-Özbəkistan-Türkiyə və Azərbaycan-Pakistan-Türkiyə üçtərəfli əməkdaşlıq mexanizmlərinin əhəmiyyətini qeyd edib.



Türk dünyasının bizim ailəmiz olduğunu vurğulayan dövlətimizin başçısı bunu Milli Məclisdə Azərbaycan Prezidenti kimi andiçmə mərasimində bir daha dediyini xatırladıb. Söhbət zamanı Azərbaycanla Türkiyə arasında beynəlxalq təşkilatlar çərçivəsində də uğurlu əməkdaşlığa toxunulub, bu xüsusda ölkəmizin İqtisadi Əməkdaşlıq Təşkilatına (D-8) üzvlüyü və üzvlüyümüzün qardaş Türkiyə tərəfindən dəstəklənməsi bir daha vurğulanıb. Qeyd edilib ki, Azərbaycan və Türkiyə daim çiyin-çiyinə bir-birinin yanındadır. Suriya məsələsində də Azərbaycan Türkiyənin yanında olduğunu ilk günlərdən bəyan edib. Bu xüsusda vurğulanıb ki, Suriyada sabitliyin, təhlükəsizliyin təmin olunmasına və humanitar problemlərin həllinə Azərbaycan da Türkiyə ilə əlaqələndirilmiş şəkildə öz töhfəsini verməyə hazırdır. Bu gün Azərbaycan-Türkiyə qardaşlığının, dostluğunun Cənubi Qafqaz regionunda, eyni zamanda, onun hüdudlarından kənarda sabitliyin, təhlükəsizliyin, sülhün və əmin-amanlığın zəmanəti olduğu bir daha qeyd edilib.

Səfir Azərbaycan-Türkiyə münasibətlərinin Ulu Öndər Heydər Əliyevin "Bir millət, iki dövlət" və Atatürkün "Azərbaycanın sevinci sevincimiz, kədəri kədərimizdir" prinsipləri əsasında inkişaf etdiyini vurğulayaraq, əlaqələrimizin daha da genişləndirilməsi üçün əlindən gələni əsirgəməyəcəyini deyib.

Azərbaycanın möhtəşəm Qarabağ Qələbəsini xüsusilə qeyd edən Birol Akgün həmin dövrdə də bütün Türkiyə xalqının nəbzinin Azərbaycan xalqı ilə birlikdə döyündüyünü xatırladıb, bu Zəfər münasibətilə dövlətimizin başçısına və xalqımıza bir daha təbriklərini çatdırıb.

# Azərbaycan ilə Belarus arasındakı münasibətlər keyfiyyətcə yeni səviyyəyə qalxıb

## Prezident İlham Əliyev Belarusun ölkəmizdə yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 13-də Belarus Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Dmitri Pineviçin etimadnaməsini qəbul edib. AZƏRTAC xəbər verir ki, səfir etimadnaməsini dövlətimizin başçısına təqdim edib. Prezident İlham Əliyev səfirlə söhbət edib. Xalqlarımız və ölkələrimiz arasında etimada əsaslanan dostluq əlaqələrinin mövcud olduğunu vurğulayan dövlətimizin başçısı ikitərəfli münasibətlərimizin inkişafının məmnunluq doğurduğunu deyib, indi münasibətlərimizin keyfiyyətcə daha yeni səviyyəyə qalxdığını bildirib. Prezident İlham Əliyev hazırda iqtisadi əməkdaşlığın genişləndirilməsi üçün yaxşı imkanların mövcudluğunu qeyd edərək bu istiqamətdə çoxlu layihələrin müzakirə olunduğunu deyib.



Dövlətimizin başçısı Aleksandr Lukaşenko ilə mütəmadi əsasda olan təmaslarının önəminə toxunub, Belarus Prezidentinin ölkəmizə dövlət səfərini və COP29-da iştirakını xatırlayıb, bunların əməkdaşlığımızın genişlənməsinə xidmət etdiyini deyib. Həmin səfərlər zamanı müxtəlif istiqamətlərdə əməkdaşlıqla bağlı çox səmərəli danışıqların aparıldığını vurğulayan Prezident İlham Əliyev müzakirə olunan məsələlərin həyata keçirilməsi istiqamətində səyləri qeyd edib.

Dövlətimizin başçısı səfirə fəaliyyətində uğurlar arzulayıb.

Azərbaycana səfir təyin olunmasından şərəf hissi duyduğunu deyən Dmitri Pineviç ilk gündən ölkəmizdə gördüyü yüksək qonaqpərvərliyi və ona göstərilən diqqəti məmnunluqla vurğulayıb. Səfir Azərbaycan və Belarus prezidentləri arasında olan münasibətlərin ikitərəfli əlaqələrimizin inkişafında xüsusi rolunu qeyd edib. Münasibətlərimizin inkişafı istiqamətindəki işlərlə bağlı böyük məsuliyyət hissi daşıdığını deyən səfir Azərbaycan və Belarus arasında əlaqələrin daha da genişləndirilməsi üçün səylərini əsirgəməyəcəyini bildirib.

Söhbət zamanı ölkələrimiz arasında innovativ texnologiyalar, tibb, kənd təsərrüfatı və digər sahələrdə əməkdaşlığın dərinləşdirilməsi, həmçinin humanitar və mədəni əlaqələrin inkişafı ilə bağlı fikir mübadiləsi aparılıb. Azərbaycanın işğaldan azad olunmuş ərazilərində həyata keçirilən bərpa-quruculuq işlərində Belarus şirkətlərinin iştirakı məsələsinə toxunulub.

# Prezident İlham Əliyev Paraqvayın Azərbaycanda yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 13-də Paraqvay Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Seferino Valdez Peraltanın etimadnaməsini qəbul edib. AZƏRTAC xəbər verir ki, səfir etimadnaməsini dövlətimizin başçısına təqdim edib. Prezident İlham Əliyev səfirlə söhbət edib. Səfir Seferino Valdez Peralta Paraqvay Respublikasının Prezidenti Santyaqo Penyanın salamlarını dövlətimizin başçısına çatdırıb. Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirib, Onun da salamlarını Paraqvayın dövlət başçısına çatdırmağı xahiş edib. Görüşdə Azərbaycan ilə Paraqvay arasında parlamentlərarası, mədəni, humanitar əlaqələrin inkişaf etdirilməsinin vacibliyi bir daha qeyd olunub, Paraqvay parlamentində Azərbaycanla dostluq qrupunun tezliklə ölkəmizə səfər edəcəyi bildirilib, kənd təsərrüfatı, o cümlədən heyvandarlıq sahəsində əməkdaşlığın perspektivlərinə dair müzakirələr aparılıb. Bildirildi ki, Paraqvay region ölkələrinə öz ixracının artırılması üçün Azərbaycanı logistik mərkəz kimi görür.



Söhbət zamanı SOCAR ilə Paraqvayın neft şirkəti arasında təmasların olduğu qeyd edilib, ölkələrimizin biznes dairələrinin əlaqələrinin yaradılması məsələsi vurğulanıb.

# Başlıca hədəfimiz dayanıqlı inkişaf modelini təkmilləşdirməkdir

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Vergi Xidməti - 25: Davamlı inkişaf və effektiv transformasiya" mövzusunda keçirilən Forumun iştirakçılarına təbrik ünvanlayıb. Təbrikdə bildirirlir: "Vergi Xidməti - 25: Davamlı inkişaf və effektiv transformasiya" mövzusunda keçirilən Forumun iştirakçılarını salamlayır və Dövlət Vergi Xidməti işçilərini peşə bayramı münasibətilə təbrik edirəm. 2025-ci il Azərbaycan Respublikasında "Konstitusiya və Suverenlik İli" elan edilib. Bu il Konstitusiyamızın qəbul edilməsinin 30-cu və Vətən müharibəsində qələbəmizin 5-ci ildönümüdür. Respublikamızın ali Qanununun müddəaları dövlətimizin müstəqilliyinin əsaslarını və xalqımızın iradəsini əks etdirərək ölkəmizin demokratik və hüquqi dövlət quruculuğu istiqamətində inamla irəliləməsi üçün zəmindir. Konstitusiyamızda vətəndaşların əsas vəzifələrinə aid edilmiş mühüm müddəalardan biri onun 73-cü maddəsində əks olunub: "qanunla müəyyən edilmiş vergiləri və başqa dövlət ödənişlərini tam həcmdə və vaxtında ödəmək hər bir kəsin borcudur". Konstitusiyamızda vergilərə dair müəyyən edilmiş bu müddəa dövlətimizin maliyyə sabitliyinin və davamlı inkişafının təminatı olub, ölkəmizin hüquqi və iqtisadi inkişafı yolunda möhkəm təməl yaradır".



### Prezident İlham Əliyev:

### Biz qüdrətli dövlət qururuq, belə dövlətin vətəndaşı isə vergi ödəməkdən qürur duymalıdır

Azərbaycanın yüksək inkişaf potensialına malik dinamik bir iqtisadiyyata sahib olduğunu qeyd edən Prezident vurğulatıb ki, biz böyük infrastruktur layihələrini icra edir, müxtəlif sahələrdə rəqabət qabiliyyətini artırmağa yönəlmiş islahatlar həyata keçirir, dayanıqlı və innovativ iqtisadiyyat qurmaqla yanaşı, xarici investisiyaları cəlb edir və yerli istehsalın gücləndirilməsi istiqamətində mühüm addımlar atırıq. Uğurlarımız dayanıqlı iqtisadi artımın sürətini artırmaqla yanaşı, həm də sosial rifahın yüksəlməsinə xidmət edir. Bizim yolumuz davamlı inkişafa və şəffaf idarəetməyə əsaslanır. "Hazırda başlıca hədəfimiz iqtisadiyyatımızı bundan sonra daha da şaxələndirmək və dayanıqlı inkişaf modelini təkmilləşdirməkdir. "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" yaxın gələcəkdə inkişaf konsepsiyamızın əsasını təşkil edir. Davamlı güclənən rəqabətqabiliyyətli iqtisadiyyatın, inklüziv və sosial ədalətə əsaslanan cəmiyyətin qurulması, ölkəmizin rəqabətli insan kapitalına söykənən müasir innovasiyalar məkanına və "yaşıl artım" ölkəsinə çevrilməsi, işğaldan azad edilmiş ərazilərimizin yenidən məskunlaşdırılması qarşımızda duran əsas prioritetlərdir. Bu milli prioritetlərin hər biri qarşılıqlı və əlaqəli şəkildə icra edildikdə yüksək nəticələr verəcəkdir. Bu məqsədlərin reallaşdırılmasının təməlində dövlətin iqtisadi qüdrəti, gəlirləri, fiskal dayanıqlığı durur. Güclü maliyyə imkanlarının formalaşdırılmasına isə effektiv vergi sistemi töhfə verə bilər. Maliyyə imkanlarımızın ildən-ilə artması, büdcə gəlirlərimizin fiskal dayanıqlığı prosesində effektiv və proaktiv vergi siyasətinin həyata keçirilməsi olduqca vacibdir. Vergi sistemində aparılan islahatlar, vergi inzibatçılığında tətbiq olunan yeni yanaşma və mexanizmlər iqtisadiyyatda şəffaflaşmanı keyfiyyətcə yeni bir mərhələyə qaldırıb. Bu gün vergi siyasəti həm aktiv iqtisadi tənzimləmə vasitəsi, həm də stimullaşdırıcı alətdir. Hazırda bütün fiskal yığımların əhəmiyyətli hissəsini məhz vergi orqanları təmin edir", - deyə qeyd edən dövlət başçısı ərazi bütövlüyümüzün və suverenliyimizin tam bərpasının işğaldan azad edilmiş ərazilərin iqtisadi inkişafı üçün möhkəm təməl yaratdığını bildirib: "Bu ərazilərdə infrastrukturun bərpası, yeni sənaye və kənd təsərrüfatı sahələrinin yaradılması istiqamətində atdığımız addımlar, regionun milli iqtisadiyyata reinteqrasiyası gələcəkdə əhəmiyyətli irəliləyişlərə səbəb olacaq. İqtisadiyyatın diversifikasiyası və yerli əhalinin sosial rifahının təmin edilməsi bu ərazilərin sürətli inkişafını təmin edəcək, Qarabağ və Şərqi Zəngəzur bölgələri ölkəmizin ümumi iqtisadi potensialına mühüm töhfələr verəcəkdir. Bu prosesdə vergi siyasətinin və vergi təşviq alətlərinin də böyük rolu var. İşğaldan azad edilmiş ərazilərdə fəaliyyət göstərən sahibkarlar üçün uzunmüddətli vergi və gömrük güzəştləri müəyyən edilib. Ərazi bütövlüyümüzün tam bərpa edilməsi xarici investorların da ölkəmizə marağını artırır. Uzun illərdir Azərbaycanda müsbət sərmayə iqlimi mövcuddur, investisiyaların adambaşına düşən həcminə görə biz qabaqcıl ölkələr sırasındayıq. Bununla belə, regionda iqtisadi dayanıqlığın təmin olunması, investisiyaların əhatə dairəsinin daha da genişlənməsi üçün biz daha cəlbedici biznes və vergi mühiti yaratmalıyıq. Sahibkarlara güclü dəstək verilməlidir, süni maneələr aradan qaldırılmalıdır. Dövlətin tənzimləyici qurumlarının əsas vəzifəsi ölkədə biznesin genişlənməsinə, büdcəyə vergi ödəyən güclü orta və iri sahibkarlar təbəqəsinin formalaşmasına istiqamətlənməlidir. Biz qüdrətli dövlət qururuq, belə dövlətin vətəndaşı isə vergi ödəməkdən qürur duymalıdır".

Təbrik məktubunda o da bildirilib ki, vergi sistemi ölkəmizin inkişafında müstəsna rol oynayır və vergi işçiləri həm də dövlətin iqtisadi siyasətinin həyata keçirilməsində mühüm funksiya yerinə yetirirlər. Vergi işçiləri yalnız büdcə gəlirlərinin təminatçısı deyil, həm də iqtisadi sabitliyin və sosial ədalətin qorunması işində önəmli bir missiyanın icraçısıdırlar. Fəaliyyətiniz dövlət büdcəsinin formalaşdırılmasında, eyni zamanda iqtisadi və sosial layihələrin həyata keçirilməsində xüsusi rol oynayır. Vergi ödəyiciləri ilə effektiv əməkdaşlıq, vergi ödəmələrinin düzgün və vaxtında həyata keçirilməsi yalnız iqtisadiyyatı deyil, həm də xalqın dövlətə olan etimadını gücləndirir: "Ölkəmizin qarşısında duran hədəf və vəzifələr çoxdur. Bu yolda sizin öz işinizə münasibətiniz və vətənə sədaqətiniz bizim üçün qiymətli sərvətdir. Əminəm ki, bu şərəfli vəzifəni yüksək səviyyədə yerinə yetirməkdə və ölkəmizin daha da qüdrətlənməsinə töhfə verməkdə davam edəcəksiz. Dövlət Vergi Xidmətinin bütün kollektivinə möhkəm cansağlığı, peşə fəaliyyətində uğurlar diləyirəm. Sizi bir daha təbrik edir, ölkəmizin inkişafı və rifahı yolunda atdığınız hər bir addımda müvəffəqiyyətlər arzulayıram!"

# Yüksək inam, sarsılmaz etimad!

## Prezident İlham Əliyev 14 fevral 2024-cü il tarixində and içib

Ötən il fevralın 7-də müstəqil Azərbaycanın tarixində daha bir əlamətdar hadisə yaşandı - növbəti Prezident seçkiləri böyük uğurla baş tutdu. Bu dəfə də Azərbaycanı zirvələrdən-zirvələrə yüksəldən Yeni Azərbaycan Partiyasının (YAP) namizədi İlham Əliyev mütləq səs çoxluğu ilə seçkilərin qalibi oldu. 14 fevral 2024-cü il tarixində isə dövlətimizin başçısı and içdi. O, Milli Məclisdə keçirilən andiçmə mərhələsində söylədiyi dərinməzmunlu nitqində keçilən yola, ölkənin hər cəhətdən müsbət reallıqlarına nəzər saldı və diqqəti qarşıda duran prioritetlərə yönəltdi.







### Uğurlarla, qələbələrlə dolu illər

Prezident İlham Əliyev xalqın və dövlərin mənafeyinə uyğun, bu maraqları qoruyan siyasət həyata keçirir - cəmiyyətdən gələn sosial sifarişlərə xüsusi həssaslıqla yanaşır. Buna görə də bütün cəmiyyətin Prezident İlham Əliyevə hörmət və ehtiramı həmişə yüksək səviyyədə olub. Prezident İlham Əliyev andiçmə mərasimindəki nitqində seçkilərdə Ona yenidən böyük etimad və dəstək göstərən doğma xalqına öz dərin təşəkkürünü bildirərək bundan sonra da Azərbaycanın hərtərəfli inkişafı, ərazi bütövlüyümüzün qorunması üçün əlindən gələni əsirgəməyəcəyini diqqətə çatdırıb. "İyirmi ildən çoxdur ki, Azərbaycan xalqı mənə öz dəstəyini göstərir. 2003-cü ildə ilk dəfə Prezident vəzifəsinə seçiləndə əziz xalqımı əmin etmişdim ki, qarşıda duran bütün vəzifələri icra etməyə, xalqın yüksək etimadını doğrultmağa çalışacağam. Bu illər uğurlarla dolu, qələbələrlə dolu illər olmuşdur", - deyə dövlətimizin başçısı vurğulayıb.

Son 20 ildə Prezident İlham Əliyevə ümumxalq rəğbətinin davamlı olaraq artdığını müşahidə edirik. İlham Əliyev Prezident seçkiləri marafonuna ilk dəfə 2003-cü ildə qatılıb. Həmin il oktyabrın 15-də demokratik qaydada keçirilən seçkilərdə İlham Əliyev ümumi seçicilərin 76.84% faizdən çoxunun etimadını qazanaraq ilk dəfə Azərbaycan Respublikasının Prezidenti seçilib. 2008-ci ildə baş tutan prezident seçkilərində seçicilərin 88,73 faiz səsini qazanıb. 2013-cü il prezident seçkilərində 84,54 faiz səsini qazanan İlham Əliyev, 2018-ci il aprelin 11-də baş tutmuş növbədənkənar Prezident seçkilərində 86,02 faiz seçici etimadı əldə edib.

### Müstəqillik tariximizdə bir ilk

Ötən il fevralın 7-də baş tutan Prezident seçkilərinin dövlətimiz və xalqımız üçün müstəsna önəmi var - 7 fevral seçkiləri tarixi Zəfər seçkiləri kimi dəyərləndirilir. Bu da onunla bağlıdır ki, 30 illik müstəqillik tariximizdə Prezident seçkiləri ilk dəfə ölkənin bütün ərazisində baş tutub. Azərbaycan müstəqilliyinin elə ilk vaxtlarından işğal faktı ilə üzləşmişdi. Bu səbəbdən də 450 minə yaxın seçici Azərbaycanın müxtəlif ərazilərində səs vermək məcburiyyətində qalırdı. Ancaq 44 günlük Vətən müharibəsinin və 23 saatlıq lokal xarakterli antiterror tədbirlərinin nəticələrinə uyğun olaraq Azərbaycan öz ərazi bütövlüyünü və suverenliyini bərpa etdi və ilk olaraq 7 fevral Prezident seçkiləri ölkənin bütün ərazisində təşkil olundu.

7 fevral seçkiləri respublikamızda Prezident İlham Əliyevin rəhbərliyi ilə əsas ümummilli ideyamızın həyata keçirildiyi bütöv bir mərhələnin yekunu və qarşıda yeni mühüm çağırışların dayandığı növbəti mərhələnin başlanğıcı kimi dəyərləndirilir. Prezident İlham Əliyev qürur hissi ilə "2003-cü ildə verdiyim bütün vədlər yerinə yetirildi", - deyə vurğulayıb.

Bəli, xalqımızın 30 il həsrətlə gözlədiyi Zəfərin, İkinci Qarabağ müharibəsində, lokal xarakterli antiterror tədbirlərində qazanılan möhtəşəm qələbələrin əsas memarı məhz Prezident İlham Əliyevdir və seçkilərin qalibi olmaq da onun halal haqqıdır. "Verdiyim vədlər arasında təbii ki, ilk növbədə, ölkəmizin ərazi bütövlüyünün bərpası idi", - deyə Prezident İlham Əliyev xatırladıb.

Ölkəmiz, xalqımız tarixi zəfərlərin əldə olunmasınadək Onun liderliyi ilə uzun yol keçdi. Bu keçilən yolda Özünün təbirincə desək, nəyi necə və nə zaman etməyi hamıdan yaxşı bilən İlham Əliyev hər mərhələdə yaranan vəziyyətə və çağırışlara adekvat addımlar atmağı və düzgün qərarlar verməyi bacardı. Onun fəal, çevik diplomatiyası beynəlxalq miqyasda ölkəmizin mövqelərini möhkəmləndirdi. Dünyada dostlarımızın sayı artdı, beynəlxalq tədbirlərdə haqq səsimiz eşidildi, ermənilərin yalan təbliğatı iflasa uğradı.

Paralel şəkildə, Prezident İlham Əliyev ölkənin iqtisadiyyatının gücləndirilməsi qayğısına qalıb. Alınan qərarlar, bir-birini tamamlayan islahatların məntiqi nəticəsi olaraq respublikamızın iqtisadi müstəqilliyi, bu əsasda da siyasi müstəqilliyi tam təmin olunub. İqtisadi müstəqillik zəminində ordu quruculuğu davamlı şəkildə diqqət mərkəzində saxlanılıb. Azərbaycan qısa müddətdə dünyanın 50 ən güclü ordusu sırasında yer alan Silahlı Qüvvələrini formalaşdırmağa nail olub. Eyni zamanda, İlham Əliyevin ölkəmizə rəhbərlik etdiyi dönəmdə respublikamızda Vətənə, ənənələrimizə və milli dəyərlərimizə bağlı olan gənc nəsil formalaşıb. Dövlətimizin başçısının dəfələrlə vurğuladığı kimi, 44 günlük müharibənin əsas ağırlığı da məhz vətənpərvər gənclərimizin üzərinə düşüb.

### Növbəti mərhələnin başlanğıcı

İndi isə biz yeni çağırışlarla üz-üzəyik. Prezident İlham Əliyev yeni strateji mərhələnin prioritetlərini də müəyyənləşdirib və qarşıya Böyük Qayıdışın təmin edilməsi, Qarabağ və Şərqi Zəngəzurun bərpası, texnoloji inkişaf, iqlim çağırışları, sabitliyin qorunması və digər məsələlərlə bağlı mühüm məqsədlər qoyub. "İndi isə yeni dövr başlayır. Biz bu dövrə alnımız açıq, üzümüz ağ, başımız dik daxil oluruq. Bu dövrün böyük nailiyyətləri olacaq, mən buna şübhə etmirəm", - deyə dövlətimizin başçısı vurğulayıb.



**Mübariz ABDULLAYEV**

# Azərbaycan - Çin münasibətləri yeni məzmunda

## İki ölkə arasında hərtərəfli əməkdaşlıq üçün real imkanlar mövcuddur

Azərbaycan bütün çoxtərəfli və ikitərəfli əlaqələrini özünün milli maraqları və bərabərhüquqlu əməkdaşlıq kontekstində inkişaf etdirir. Xüsusilə, bölgədə yaratdığı yeni iqtisadi-siyasi reallıqlar fonunda ortaya çıxan perspektivlər Azərbaycan üçün mühüm dividendlər formalaşdırıb. Regionun təhlükəsizliyinə verdiyi töhfə, yeni iqtisadi əlaqələrin qurulması və ya gücləndirilməsi istiqamətində atdığı addımlar, bölgənin potensialını maksimum səviyyədə nümayiş etdirmək imkanlarının yaradılması Azərbaycanı digər güc mərkəzləri və ya dövlətlər üçün maraqlı edir - bunun nəticəsidir ki, son illərdə ölkəmiz dünyanın aparıcı dövlətləri və ya beynəlxalq təsisatları ilə enerji, daşımaçılıq, tranzit imkanları və ikitərəfli münasibətlərin yeni mərhələsini özündə əks etdirən müstəvilərdə əməkdaşlıq müqavilələri, strateji müttəfiqlik sənədləri, anlaşma memarandumları imzalayır.

### Strateji tərəfdaşlığın qurulması haqqında Birgə Bəyannamə"nin əhəmiyyəti



Bu mənada, regional layihələrin gələcək inkişafı istiqamətində yaradılan mənzərə xüsusilə diqqəti cəlb edir. Azərbaycan ilə Çin arasında son illərdə əməkdaşlıq səviyyəsinin artan xəttlə inkişaf etməsi bir çox mətləblərdən xəbər verir. Çin yaşadığımız əsrdə qlobal güc mərkəzi kimi özünün iqtisadi, demoqrafik potensialı ilə çoxqütblü dünyanın mühüm siyasi aktorudur. Rəsmi Pekin müstəqil xarici siyasət kursuna malik olan milli dövlətlərin əməkdaşlıq etmək istədiyi lokomotiv ölkələrdən sayılır - Avrasiya geoməkanında, xüsusilə də Azərbaycanın mühüm təsir imkanları yaratdığı Mərkəzi Asiya - Cənubi Qafqaz - Kiçik Asiya bölgəsi üzrə ikitərəfli və çoxtərəfli səciyyə daşıyan qarşılıqlı-faydalı əməkdaşlıq münasibətlərinin formalaşmasında Çin faktoru xüsusi əhəmiyyətə malikdir. Ötən il iyulun 3-də Şanxay Əməkdaşlıq Təşkilatının Astanada keçirilən Zirvə Toplantısı çərçivəsində "Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında strateji tərəfdaşlığın qurulması haqqında Birgə Bəyannaməsi"nin əhəmiyyətinə də məhz bu müstəvidən yanaşmaq daha doğru olardı: müasir Çin - Azərbaycan əlaqələrinin komponentləri hazırkı dövrün siyasi-iqtisadi aktuallığı ilə yanaşı, həm də gələcək perspektivi də özündə cəmləyir. Prezident İlham Əliyev Davosda Çinin CGTN telekanalına müsahibəsində bildirib ki, ötən il Çin və Azərbaycan rəsmi olaraq strateji tərəfdaş oldular: "Ötən yay mənim Çinin Sədri ilə görüşümdən sonra strateji tərəfdaşlıq üzrə müvafiq Bəyannamə qəbul edildi və bu, bizim ikitərəfli əlaqələrdə çox mühüm siyasi addımdır. Strateji tərəfdaşlıq çox yüksəksəviyyəli qarşılıqlı etimad, əməkdaşlıq deməkdir və biz təkcə Ümumdünya Ticarət Təşkilatına deyil, müxtəlif beynəlxalq təşkilatlara qoşulma məsələsi daxil olmaqla Çin ilə tərəfdaşlığımızın genişləndirilməsini arzulayırıq".



### Əlaqələr geniş və dinamikdir...

Qeyd edək ki, Azərbaycan ilə Çin arasında son illərdə siyasi dialoq, iqtisadi tərəfdaşlıq əlaqələri genişlənməkdədir. Üst-üstə düşən maraqlar, uzalaşan münasibətlər sisteminin bütün sferasını əhatə etməsi diqqəti cəlb edir. Burada siyasi - iqtisadi bloklar, ikitərəfli münasibətlərin möhkəmlənməsi, beynəlxalq münasibətlər sisteminə baxış, qlobal proseslərdə əməkdaşlıq, maraqların uzlaşdırılması, qarşılıqlı şəkildə dövlət mənafeyinin qorunması və ən əsası təhlükəsizlik kimi strateji məqamlar yer almaqdadır. Çinin Azərbaycana münasibətdə strateji tərəfdaş yanaşması bizə həm siyasi, həm də iqtisadi üstünlüklər vəd edir. Dövlət başçısı öz müsahibəsində bildirib ki, biz Mərkəzi Asiyada bağlantı layihələrinin də əsasən Çin hökuməti tərəfindən maliyyələşdiriləcəyini bilirik. Xəzər dənizinə digər bir marşrut Azərbaycana gedən digər marşrutdur və biz buna mütləq hazır olmalıyıq: "Əminəm ki, Sədr Si Cinpinin "Bir kəmər, bir yol" təşəbbüsü bütün ölkələr üçün əla və imkanlar yaradacaq. Bir daha söhbət bağlantıdan, biznes imkanından, sabitlik və təhlükəsizlikdən gedir. Çünki biz hamımız bir-birimizdən asılı oluruq. Bizi birləşdirən vacib infrastruktur layihələri var. Bu, ölkələr arasında həm ikitərəfli, həm də çoxtərəfli əlaqələr istiqamətində bir sıra məsələlərin həlli üçün yaxşı bir mühitdir".



Azərbaycan ilə Çin arasında strateji tərəfdaşlığın qurulması haqqında Birgə Bəyannaməyə nəzər saldıqda, sənədin iki ölkə şan mövqelər yaxın təmaslar və xüsusilə də dövlətlərarası münasibətlərin formalaşmasında və inkişafında liderlərin şəxsi münasibətləri mühüm rol oynayıb. İki ölkənin rəsmiləri arasında səfərlər intensivləşib, bütün sahələr üzrə danışıqlar və razılaşmalar dinamik xarakter alıb. Çinin Sədri Si Cinpin ikitərəfli münasibətlərin yüksək dinamika ilə inkişafında Azərbaycan Prezidentinin rolunu həmişə yüksək dəyərləndirib və cənab İlham Əliyevi Çinin böyük dostu adlandırıb. Beləliklə, dinamik və işgüzar xarakter daşıyan bu əlaqələr yeni mərhələyə və yeni müstəviyə qədəm qoyur.



### Xalqlararası inteqrasiya güclənir...

Bəli, öz növbəsində, Çin də Cənubi Qafqazın ən güclü aktoru olan, regional və beynəlxalq təhlükəsizliyə mühüm töhfələr verən Azərbaycanla əməkdaşlığa xüsusi əhəmiyyət verir. Bu, Pekinin Bəyannamə ilə bağlı mövqeyində də açıq görünür. Üst-üstə düşən maraqlar, uzalaşan mövqelər, yaxın təmaslar və xüsusilə də dövlətlərarası münasibətlərin formalaşmasında və inkişafında liderlərin şəxsi münasibətlərin bütün sahələr üzrə danışıqların və razılaşmaların dinamik xarakter almasını şərtləndirir. Azərbaycanın regionda oynadığı rol artamqdadır və Çinin ölkəmizə qarşı yanaşmasında sərgilədiyi əməkdaşlıq mövqeyi regional lider statusu ilə uzlaşır. Azərbaycan dünyaya açıq bir ölkədir - biz bərabərhüquqlu tərəfdaşlığı, investisiya mühitinin inkişafını, cəmiyyətlərarası inteqrasiyanı gücləndirməyi təşfiq edirik və bu yöndə addımlar atırıq. Məsələn, bir müddət öncə Azərbaycan Çin vətəndaşlarını viza almaq tələbindən azad edib. Prezident İlham Əliyev bu məsələyə toxunaraq bildirib ki, indi Çin vətəndaşları heç kimə viza üçün də müraciət etmək məcburiyyətində deyillər: "Ümidvarıq ki, tezliklə Azərbaycan vətəndaşları da bu fürsətdən yararlanacaq. Beləliklə, bu, turistlərin sayını, xalqlar arasında təmasları artıracaq və əlbəttə ki, ictimai diplomatiya öz rolunu oynayacaq. İndi biz rəsmi diplomatik kanallardan istifadə edirik - siyasi, iqtisadi, ticari, investisiya, bağlantı. Lakin ictimai diplomatiya buna çoxlu töhfə verəcəkdir".

**P.SADAYOĞLU**

# Azərbaycan - Çin əlaqələrinə həsr olunmuş tədbir keçirilib



















Fevralın 13-də Azərbaycan Dillər Universiteti nəzdində Konfutsi İnstitutunda Çin Xalq Respublikasının Azərbaycandakı səfirliyinin təşkilatçılığı ilə Azərbaycan - Çin əlaqələrinə həsr olunmuş tədbir keçirilib.

Yeni Azərbaycan Partiyasının (YAP) gənc üzvlərinin iştirakı ilə "Çin və Azərbaycan arasında Şanxay Əməkdaşlıq Təşkilatı çərçivəsində dövlətlərarası və partiyalararası əlaqələr" mövzusunda keçirilən tədbiri giriş sözü ilə açan Azərbaycan Dillər Universiteti nəzdində Konfutsi İnstitutunun direktoru, professor Rafiq Abbasov bildirib ki, Çin Xalq Respublikası ilə ikitərəfli münasibətlərin inkişaf etdirilməsi Azərbaycanın xarici siyasətinin mühüm prioritetlərindən biridir. Onun sözlərinə görə, Azərbaycanla Çin arasında çoxşaxəli əməkdaşlıq əlaqələri uğurla inkişaf edərək strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib.

R.Abbasov qeyd edib ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə Çin Xalq Respublikasının Sədri Si Cinpin iki ölkə arasında əlaqələrin inkişafına xüsusi önəm verirlər. "Azərbaycan "Vahid Çin" prinsipini birmənalı olaraq dəstəkləyir. Eyni zamanda, Çin Xalq Respublikası hər zaman Azərbaycanın ərazi bütövlüyünə qətiyyətli dəstəyini ifadə edib", - deyən R.Abbasov Çinin ölkəmizin BRICS platformasında təmsilçiliyinə və Şanxay Əməkdaşlıq Təşkilatı ilə əlaqələrinin inkişafına dəstəyinin dostluq və etibarlı strateji tərəfdaşlıq nümunəsi olduğunu söyləyib.

Tədbirdə Çinin Azərbaycandakı səfirliyinin müvəqqəti işlər vəkili Ding Tao "Şanxay Əməkdaşlıq Təşkilatı və Çin-Azərbaycan əlaqələri" mövzusunda çıxış edib. O bildirib ki, Çin-Azərbaycan əlaqələri davamlı olaraq inkişaf edir. Ding Tao 2024-cü ilin iyul ayında iki dövlət arasında strateji tərəfdaşlığın qurulması haqqında Birgə Bəyannamənin imzalanmasının işbirliyinin dərinləşdirilməsi baxımından önəmini qeyd edib. Diplomat ötən ilin noyabr ayında Çin Kommunist Partiyası ilə Yeni Azərbaycan Partiyası arasında Əməkdaşlıq Memorandumunun imzalandığını xatırladaraq qarşılıqlı fikir və təcrübə mübadiləsinin əhəmiyyətindən bəhs edib: "Çin Kommunist Partiyası Yeni Azərbaycan Partiyası ilə dostluq münasibətlərinə böyük dəyər verir və partiyalar arasında siyasi dialoqu gücləndirmək, müxtəlif səviyyələrdə əlaqələri sıxlaşdırmaq, xalqlarımız arasında dostluğu nəsillər boyu davam etdirmək üçün səy göstərməyə hazırdır".

Ding Tao qeyd edib ki, 2001-ci ildə yaradılmış Şanxay Əməkdaşlıq Təşkilatı ötən dövr ərzində böyük inkişaf yolu keçərək geniş təsir imkanlarına malik təşkilata çevrilib: "Azərbaycan Şanxay Əməkdaşlıq Təşkilatının dialoq tərəfdaşıdır. Çin Azərbaycana bu təşkilat ilə əməkdaşlığı gücləndirməsi üçün dəstək göstərir".

YAP Gənclər Birliyinin üzvü, Milli Məclisin deputatı Səbinə Xasayeva bildirib ki, Çin ilə Azərbaycan coğrafi baxımdan bir-birindən uzaq məsafədə yerləşməsinə baxmayaraq, xalqlarımız arasında tarixən dostluq əlaqələri mövcud olub. Onun sözlərinə görə, Çin tərəfindən irəli sürülən "Bir kəmər, bir yol" layihəsi ölkələr arasında ikitərəfli münasibətlərin dərinləşməsinə yeni imkanlar yaradır: "Azərbaycan bu təşəbbüsü ilk dəstəkləyən ölkələrdən olmuş və həyata keçirdiyi irimiqyaslı nəqliyyat-infrastruktur layihələri ilə genişmiqyaslı əməkdaşlıq üçün önəmli imkanlar yaratmışdır".

S.Xasayeva qeyd edib ki, iki ölkə arasında qarşılıqlı etimada və dostluğa əsaslanan münasibətlər siyasi, iqtisadi, mədəni və digər sahələrdə hərtərəfli əməkdaşlığın əsasını təşkil edir: "Fəal siyasi dialoq nəticəsində bir çox mühüm nailiyyətlər əldə edilib. Bu gün YAP və Çin Kommunist Partiyası arasında münasibətlər də yüksələn xətt üzrə inkişaf edir".

YAP Gənclər Birliyinin sədri Bəxtiyar İslamov isə çıxışında deyib ki, Azərbaycan və Çin arasında siyasi, iqtisadi, mədəni, təhsil və digər sahələrdə əlaqələr genişlənməyə davam edir: "Bu münasibətlərin vacib aspektlərindən biri də Yeni Azərbaycan Partiyası ilə Çin Kommunist Partiyası arasındakı sıx əməkdaşlıqdır. Ötən illərdə partiyamızın nümayəndələri Çin Kommunist Partiyasının dəvəti ilə bu ölkəyə səfərlər edib. Bu səfərlər siyasi dialoqun dərinləşməsinə, təcrübə mübadiləsinə və yeni əməkdaşlıq sahələrinin müəyyən olunmasına şərait yaradıb. Ötən ilin noyabr ayında YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun başçılığı ilə partiyamızın nümayəndə heyətinin Çinə səfəri isə xüsusi qeyd edilməlidir. Səfər zamanı imzalanmış Əməkdaşlıq Memorandumunda əksini tapan əsas istiqamətlərdən biri də gənclər arasında əməkdaşlıqdır. Gənclər arasında əməkdaşlığa investisiya qoymaq ölkələrarası uzunmüddətli tərəfdaşlığın gücləndirilməsi baxımından böyük əhəmiyyət daşıyır".

B.İslamov Azərbaycan və Çin arasındakı münasibətlərin daha da möhkəmlənməsi üçün etibarlı zəminin mövcud olduğunu vurğulayıb: "Eyni zamanda, Yeni Azərbaycan Partiyası ilə Çin Kommunist Partiyası arasındakı əməkdaşlığın daha da güclənəcəyinə və qarşıdakı illərdə daha böyük uğurlara imza atılacağına inanırıq. Bundan əlavə, hər iki partiyanın gənc üzvlərinin gələcək layihə və təşəbbüslərdə fəal iştirak edərək əməkdaşlığımızın daha da dərinləşməsinə mühüm töhfələr verəcəyinə ümid edirik".

Tədbirdə, həmçinin Çin Xalq Respublikasının Azərbaycandakı səfirliyinin üçüncü katibi Se İlin, YAP Gənclər Birliyi sədrinin müavini Fəsli Nəbiyev, Çin Xalq Respublikasının Azərbaycandakı səfirliyinin attaşesi Yan Şisue və YAP Gənclər Birliyinin üzvü Anastasiya Lavrina çıxış edərək ölkələrimiz və partiyalarımız arasında əlaqələr haqqında fikirlərini bildiriblər.

Sonda bədii hissə və Çin mədəniyyətinin nümunələri təqdim olunub.

# Ermənistan "Bern Konvensiyası"na dair hüquqi öhdəliklərini pozub

## İddia sənədi Daimi Arbitraj Məhkəməsinə təqdim edilib

Ermənistanın 30 ilə yaxın işğal altında saxladığı Azərbaycan ərazilərində törətdiyi ağır cinayətlər sırasında ekoloji cinayətlərin də miqyası çox böyükdür. Azərbaycan öz torpaqlarını işğaldan azad etdikdən sonra biz görürük ki, Ermənistan uzun illər işğal altında saxladığı torpaqlarımızda təbiətə qarşı da düşmən münasibət sərgiləyib. Ermənilərin törətdiyi terror nəticəsində regionun ekologiyası üçün ciddi təhlükələr yaranıb. Belə ki, həmin ərazilərdə bioloji müxtəlifliyə, flora və fauna növlərinə, xüsusi mühafizə olunan təbiət ərazilərinə ciddi zərər vurulub, ərazilər yandırılıb, su resursları çirkləndirilib, qiymətli ağac növləri ilə zəngin olan meşələr məhv edilib. Ümumilikdə, yeraltı və yerüstü sərvətlərin məqsədli şəkildə talan edilməsi nəticəsində bu bölgədə ekoloji tarazlıq pozulub və Azərbaycanın ekologiyasına ciddi ziyan dəyib. Dövlətimiz Ermənistanın bu cinayətləri ilə əlaqədar beynəlxalq məhkəmə instansiyalarına müraciət edir.

### Bern Konvensiyası əsasında...

Yeri gəlmişkən, Xarici İşlər Nazirliyinin məlumatına görə, fevralın 12-də Azərbaycan tərəfi Haaqa şəhərində yerləşən Daimi Arbitraj Məhkəməsinin mənzil-qərargahında 1979-cu il tarixli "Avropanın canlı təbiətinin və təbii mühitinin qorunması haqqında" Konvensiya ("Bern Konvensiyası") əsasında Ermənistana qarşı arbitraj işi üzrə iddia sənədini təqdim edib. İddia sənədində Ermənistanın "Bern Konvensiyası"na dair hüquqi öhdəliklərinin çoxsaylı pozuntuları ətraflı şəkildə öz əksini tapıb. Azərbaycan öz ərazilərini azad etməklə Ermənistanın ətraf mühiti məhv etməsinə və dünyanın ən zəngin biomüxtəliflik ocaqlarından birində yaşayış mühiti və növlərini qoruya bilmədiyinə dair dəhşətli sübutlar aşkar edib. Ermənistanın hərəkətlərinin bölgədəki canlı təbiətə və növlərinə dönməz şəkildə ciddi ziyan vurduğu müəyyənləşdirilib.

Qeyd edək ki, 2023-cü il yanvarın 18-də Azərbaycan sözügedən dəlillərə əsaslanaraq arbitraj prosesinin başlanması üçün Ermənistana arbitraj bildirişi göndərib. 2023-cü il sentyabrın 15-də arbitraj məhkəməsinin tərkibi təsdiqlənərək, 2024-cü il aprelin 12-də Haaqadakı Sülh Sarayında Azərbaycan ilə Ermənistan arasında ilk prosedur iclası keçirilib. Azərbaycanın Ermənistana qarşı məhkəmə iddiası Bern Konvensiyası əsasında indiyədək məlum olan ilk dövlətlərarası arbitraj prosesidir.



Azərbaycan Ermənistan tərəfindən yaşayış yerlərinin və canlı təbiətin kütləvi şəkildə məhv edilməsinə görə bu ölkədən tam təzminat tələb edir. Buraya Azərbaycan ərazilərinin bir hissəsinin Ermənistanın işğalı zamanı əraziyə aid olan yüzlərlə vəhşi təbiət növünə və yaşayış yerlərinə mənfi təsir göstərən addımlar, o cümlədən meşələrin genişmiqyaslı qırılması, ekoloji cəhətdən səmərəsiz şəkildə ağacların kəsilməsi, mədənçilik və su elektrik stansiyalarının tikintisi daxildir.

### BMT-nin Ətraf Mühit Proqramı da faktları təsdiqləyir

Birləşmiş Millətlər Təşkilatının Ətraf Mühit Proqramı (UNEP) yaşı 2000-dən çox olan qədim ağacların olduğu Azərbaycanda minlərlə hektar xüsusi mühafizə olunan və qiymətli meşənin zərər gördüyünü bildirib. Bu qoruqlardan bəziləri Bəsitçay vadisindəki Şərq çinarı meşəsi kimi nadir və kövrək ekosistemləri qorumaq üçün yaradılmışdı. UNEP hesabatında Oxçuçayda yüzlərlə balığın ölü tapıldığını əlavə edərək, əvvəllər işğal olunmuş ərazilərdə mədənçiliyin "suyun, torpağın və biomüxtəlifliyin kimyəvi çirklənməsinə" səbəb olduğunu sənədləşdirib. İşğal zamanı Ermənistan tərəfindən törədilən hərəkətlər hələ də bir neçə qorunan balıq və amfibiya növünü təhdid edir.

### Ədalətin təmin edilməsi üçün...

Azərbaycan ədalətin təmini istiqamətində fəaliyyətini davam etdirəcək və Ermənistanın qanunsuz işğalı zamanı ətraf mühitin, heyvan növlərinin və yaşayış yerlərinin məhvi və qorunmaması ilə bağlı bu ölkəni beynəlxalq məsuliyyətə cəlb edəcək.

Göründüyü kimi, Azərbaycan tərəfin-



dən qaldırılan dövlətlərarası iddiada qeyd olunur ki, digər öhdəliklərlə yanaşı, Ermənistan bütün vəhşi flora və faunanın populyasiyalarını qorumaqla bağlı Bern Konvensiyasından irəli gələn hüquqi öhdəliklərini, xüsusilə də, vəhşi flora və fauna mühitinin qorunub saxlanılmasını, bərpasını və təkmilləşdirilməsini təmin etmək üzrə öhdəliyini kobud surətdə pozub. Birləşmiş Millətlər Təşkilatının Ekosistemlərin Bərpası Onilliyinə uyğun olaraq, Azərbaycan beynəlxalq ictimaiyyəti Ermənistanın dünyanın ən zəngin və bioloji müxtəlif ekosistemlərindən birini işğal dövrü ərzində məhv etməsini pisləməyə çağırır. Arbitraj prosesi çərçivəsində Azərbaycan Ermənistandan Bern Konvensiyasının hazırda davam edən bütün pozuntularına son qoymağı və işğal altında olmuş ərazilərdə ətraf mühitin məhvinə görə Azərbaycana tam kompensasiya ödəməyi tələb edir.

Hələ 2022-ci ildə BMT-nin Ətraf Mühit Proqramı (UNEP) Azərbaycanın Ermənistan tərəfindən işğal olunmuş ərazilərində "xüsusi mühafizə olunan və qiymətli meşələr"in qorunmadığını qeyd edib. Laçında yerləşən "Dəmirli-1" mədəninin, Qalaça su elektrik stansiyasının və Çardağlı mədəninin tikilməsi üçün yaşayış yerlərinin məhv edilməsi də daxil olmaqla, meşələrin qırılmasının ifrat dərəcəsini göstərən əyani dəlillər mövcuddur. Ermənistanın bu addımları çayların, o cümlədən həmin ölkədən Azərbaycan ərazisinə axan transsərhəd çayların həddindən artıq çirklənmə səviyyəsinə gəlib çıxmasına da səbəb olub.

*Nardar BAYRAMLI*

# Regional sülhə töhfə...

## Azərbaycan birləşdirici faktor kimi

**Müstəqil Azərbaycanın multiregional xarici siyasət kursu həmişə ölkəmizin milli maraqlarına və beynəlxalq səviyyədə əməkdaşlığın dərinləşməsinə, yeni çağırışlar qarşısında qlobal həmrəyliyin güclənməsinə öz töhfələrini vermək prinsipinə əsaslanıb. Prezident İlham Əliyev respublikamızın xarici siyasət prioritetlərinə növbəti dəfə yanvarın 20-də Davosda Çinin CGTN (China Global Television Network) telekanalına müsahibəsində diqqət çəkib. Qeyd edək ki, dövlətimizin başçısının müsahibəsi fevralın 11-də bu televiziya kanalında yayımlanaraq geniş tamaşaçı auditoriyasına təqdim olunub.**

### Ölkəmizin siyasətinə beynəlxalq səviyyədə böyük dəstək verilir



Azərbaycanın ardıcıllıqla həyata keçirdiyi siyasət ölkəmizin dünyanın siyasi və iqtisadi xəritəsində öz yerini tutmasını hədəfləyir. Bundan ötrü respublikamız region ölkələri ilə xoş mərama əsaslanan siyasət həyata keçirir. Azərbaycanın liderliyi ilə regionda bir sıra qlobal əhəmiyyət daşıyan enerji və nəqliyyat layihələri reallaşdırılıb. Əlamətdar haldır ki, uğurla tamamlanan bu layihələrdən eyni zamanda hazırda Mərkəzi Asiya dövlətləri bəhrələnirlər. Yaradılan müasir enerji və nəqliyyat infrastrukturu daha geniş coğrafiyada yerləşən ölkələr üçün də kifayət qədər cəlbedicidir və onların da bu layihələrə qoşulmaq perspektivləri var. “Biz regionda bağlantılar yaradan genişmiqyaslı layihələr həyata keçirmişik və aid olduğumuz Cənubi Qafqaz və Xəzər regionunda etibarlı mövqe tutmuşuq”, - deyə dövlətimizin başçısı müsahibəsində vurğulayıb.

Hazırda Qlobal Qərblə Qlobal Cənub arasında yaşanan müəyyən ziddiyyətlər hər kəsə bəllidir. Azərbaycan burada körpülər yaradan, əlaqələri möhkəmləndirən ölkə qismində çıxış edir. Respublikamız davamlı olaraq o mövqeni dəstəkləyir ki, ziddiyyətləri qabartmaq yox, birləşdirici məqamları üzə çıxarmaq lazımdır. Prezident İlham Əliyev təkcə son vaxtlarda qlobal çağırışlara adekvatlıq təşkil edən bir sıra həmrəylik təşəbbüsləri irəli sürüb və onlar müxtəlif qütblərdə, həmçinin BMT səviyyəsində təqdirlə qarşılanıb. Bu gün respublikamız Avropa İttifaqının (Aİ) 10 üzv dövləti ilə strateji tərəfdaşlıq münasibətlərinə malikdir. Eyni zamanda, Azərbaycan İslam coğrafiyasını təmsil edən dövlətlərlə əlaqələrini genişləndirir. Dövlətimizin başçısı müsahibəsində bizim dostluğa, əməkdaşlığa, heç bir ölkənin daxili işlərinə qarışmamağa əsaslanan siyasətimizin beynəlxalq arenada dəstəklənməsiə xüsusi vurğu edib. Dünyada respublikamıza və onun Liderinə artan inamı təsdiqləyən çoxsaylı misallar sadalamaq mümkündür. Bunu dövlətimizin başçısının həm İslam dünyasına, həm də Avropa İttifaqı məkanına daxil olan ölkələri birləşdirən təşkilatların Zirvə görüşlərinə fəxri qonaq qismində dəvətlər alması bir daha təsdiqləyir.

### Əgər hər bir ölkə diqqətini, sadəcə, öz gündəminə yönəltsə...

Hazırda dünyanın ayrı-ayrı regionları müharibələrə cəlb olunub. Rusiya ilə Ukrayna arasında, Qəzzada böyük itkilərə və dağıntılara səbəb olan müharibələrin sonu görünmür. Müharibələrin ağır fəsadları isə yalnız iştirakçı ölkələrdə deyil, bütün dünyada hiss olunur. Eyni zamanda, bəşəriyyət nüvə təhdidləri ilə hədələnir.

Belə bir şəraitdə ölkələrin məsuliyyəti önə çıxır. Hər bir dövlət gözlənilən təhdidlərin önlənməsi üçün səy göstərməlidir. Burada da respublikamızın nümunəsi diqqət çəkir. Otuz il ərzində işğaldan əziyyət çəkmiş Azərbaycan postmüharibə dövründə ilk olaraq sülh təşəbbüsündən çıxış edib və bu zaman məğlub tərəfə beynəlxalq hüquqdan kənar hər hansı bir şərt irəli sürməyib. Prezident İlham Əliyevin bildirdiyi kimi, Azərbaycanın təkcə Mərkəzi Asiya, Xəzər və Cənubi Qafqazda deyil, daha geniş coğrafiyada regional sabitliyə, regional sülhə verdiyi töhfə artıq qlobal, beynəlxalq aktorlar tərəfindən yüksək qiymətləndirilir. Dövlətimizin başçısı ölkəmizin mövqeyinə bir daha aydınlıq gətirib. “Bizim mövqeyimiz ondan ibarətdir ki, əgər hər bir ölkə diqqətini, sadəcə, öz gündəminə yönəltsə, başqa ölkənin işlərinə müdaxilə etməyə çalışmasa, münaqişələr, narazılıqlar, müharibələr olmaz. Bütün dünyada hələ də qeyri-sabit vəziyyətin olmasının və qan tökülməsinin yeganə səbəbi ondan ibarətdir ki, imperialist keçmişi olan ölkələr, sadəcə olaraq, müdaxilə etməyə, dominantlıq etməyə, diktə etməyə davam etmək istəyir və bu, təbii olaraq, müqavimətə gətirib çıxarır”, - deyə Prezident İlham Əliyev vurğulayıb.



### Qlobal çağırışlara həssas yanaşma

Ölkəmiz hər zaman qlobal çağırışlara həssas yanaşma sərgiləyir. Pandemiyanın pik mərhələsində respublikamız Ümumdünya Səhiyyə Təşkilatına, ayrı-ayrı dövlətlərə, o cümlədən də Qoşulmama Hərəkatında təmsil olunan dövlətlərə dəfələrlə yardımlar etdi.

Hazırda dünya üçün əsas çağırışlardan biri iqlim dəyişmələri ilə bağlıdır. Güclü sənaye inkişafının, qlobal istiləşmənin nəticəsi olaraq yaranan kəskin iqlim dəyişmələri ağır nəticələr verir. Azərbaycan bu məsələdə də öz məsuliyyətini nümayiş etdirir. Ötən ilin noyabr ayında ölkəmizin BMT-nin iqlim konfransına - COP29-a ev sahibliyi etməsi bu həssaslığın əyani göstəricisidir.İqlim dəyişmələrindən bütün ölkələr təsirlənirlər. Ancaq bu, kiçik ada dövlətləri üçün bir mövcudluq məsələsidir. İqlim dəyişmələrində kiçik ada dövlətlərinin hər hansı bir rolları yoxdur. Ancaq onlar dünyadakı güclü sənaye inkişafının mənfi təsirlərinə məruz qalırlar. Konfransa uğurla ev sahibliyi edən Azərbaycan böyük səy göstərməklə kiçik ada dövlətlərinin problemlərini, xüsusilə də maliyyələşmə məsələsini tədbirin gündəliyinin mərkəzində saxlamağa və nəticə əldə edilməsinə nail oldu. Bakıda keçirilən COP29-da ən mühüm tədbirlərdən biri inkişaf etməkdə olan kiçik ada dövlətlərinin Zirvə görüşü idi. Həmin tədbirdə Azərbaycan bu ölkələrə əməli dəstək göstərmək üçün çox iddialı gündəlik irəli sürdü. “Təxminən 200 ölkəni bir araya gətirən İqlim konfransına ev sahibliyi etmək böyük çağırış, böyük məsuliyyət, eyni zamanda, böyük nailiyyət idi. Azərbaycanın şaxələnmiş xarici siyasətinin daha bir nümayişi ondan ibarət idi ki, bizim namizədliyimiz bütün iştirakçı dövlətlər və qurumlar tərəfindən dəstəkləndi”, - deyə dövlətimizin başçısı vurğulayıb.

*Mübariz FEYİZLİ*

# Azərbaycan regionun nəqliyyat xəritəsini müəyyənləşdirir

## Orta Dəhlizdə etibarlı mövqe tutan ölkəmiz ətraf coğrafiyaların inteqrasiyasını sürətləndirir

Prezident İlham Əliyev Çinin “CGTN” telekanalına verdiyi müsahibədə Azərbaycanın beynəlxalq enerji-nəqliyyat dəhlizlərinin təşəbbüskarı və müəllifinə çevrildiyini, Cənubi Qafqaz və Xəzər regionunda etibarlı mövqe tutduğunu bildirib. Respublikamız müasir geoiqtisadi çağırışlar fonunda bölgənin nəqliyyat arxitekturasının zənginləşməsinə töhfə verir, Çinin müəllifi olduğu “Bir kəmər, bir yol” təşəbbüsünə qoşularaq bu nəhəng kommunikasiya arteriyasının ən böyük qolu olan Orta Dəhliz quruculuğunda səylərini artırmaqdadır.

### Asiya ilə Avropa arasında körpü...

Xatırlatma üçün deyək ki, Çin tarixi ipək dəhlizinin yeni platformasının yaradılmasına başlayanda bir çox ölkə bölgədəki mürəkkəb geosiyasi vəziyyətləri nəzərə alaraq bu marşruta qoşulmaqda tərəddüdlər edirdi. Azərbaycan hökuməti isə ilk gündən öz iradəsini nümayiş etdirərək Asiyadan Avropaya uzanan bu nəqliyyat kəmərinin əsas həlqələrindən biri olmağı qətiləşdirdi. Prezident İlham Əliyevin 2015-ci ildə Çinə səfəri zamanı “Azərbaycan Respublikası Hökuməti və Çin Xalq Respublikası Hökuməti arasında “İpək Yolu İqtisadi Kəməri”nin yaradılmasının birgə təşviqinə dair Anlaşma Memorandumu”n imzalanmasından sonra bu marşrutda ölkəmizin strateji yeri müəyyənləşdi.

Azərbaycan 2017-ci ildə istifadəyə verilmiş Bakı-Tbilisi-Qars dəmir yolu xətti ilə faktiki olaraq Yeni İpək Yolunun rentabelli işlək coğrafi qovşaqlarından birinə sahib olub. Çindən ilk konteyner qatarı Xəzər dənizindən keçməklə Azərbaycana gəlib və 2018-ci ildə Bakı-Tbilisi-Qars dəmir yolu vasitəsilə yükdaşınmalarının həyata keçirilməsi faktiki olaraq bu dəhlizin fəaliyyətə başlamasına beynəlxalq hüquqi status verib.

BTQ qlobal nəqliyyat icmasında təkcə 3 ölkəni birləşdirən regional layihə deyil, Asiya və Avropa arasında vacib bağlantını təmin edən və Şərq-Qərb nəqliyyat dəhlizinin mühüm hissəsinə çevrilməklə 150 ölkə tərəfindən dəstəklənən “Bir kəmər, bir yol” təşəbbüsünün ən önəmli hissəsi kimi qəbul edilir. Göründüyü kimi Azərbaycan 10 il əvvəl qitələri birləşdirən strateji kommunikasiyalara qoşulmaqla müasir nəqliyyat xəritəsini formalaşdıran ölkələrdən biridir.



### Orta Dəhliz quruculuğunda lider ölkə

Hazırda “Bir kəmər, bir yol” təşəbbüsünün ən rentabelli və daşınmalar baxımından ən sərfəli şaxəsi olan Orta Dəhliz quruculuğunun möhkəmlənməsində də Azərbaycan xüsusi fəallıq nümayiş etdirir. Ölkəmizin strateji coğrafi mövqeyi və nəqliyyat-tranzit dəhlizlərinin şaxələndirilməsində xüsusi təşəbbüskarlığı respublikamızın Orta Dəhlizin mərkəzi qovşağına çevrildiyini şərtləndirməkdədir. Ölkəmizin Orta Dəhlizlə bağlı mövqeyi, sadəcə tranzit statusu əldə etmək və tranzitdən ödənişlər almaqdan ibarət deyil. Azərbaycanın hədəfi bu dəhlizlə btün ətraf coğrafiyaları birləşdirmək və tərəfdaş ölkələrlə yeni iqtisadi bağlantıları möhkəmləndirmək, dəhlizin keçdiyi ərazidə iri müəssisələr yaratmaqdır.

Bu baxımdan Azərbaycan Orta Dəhlizə inteqrasiyanın müasir tələblərinə uyğun olaraq nəqliyat həllərini həyata keçirir, Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin modernləşdirilməsi, Bakı Beynəlxalq Dəniz Ticarəti Limanının yükgötürmə və yükötürmə gücünün artırılması, yolboyu mal və nəqliyyat vasitələrinə gömrük nəzarətinin sürətləndirilməsi üçün əhəmiyyətli tədbirlərin görülməsi Orta Dəhlizin perspektiv güc balansına hesablanıb.




### Çin-Qazaxıstan-Azərbaycan nəqliyyat ittifaqı

Prezident İlham Əliyev Orta Dəhlizin böyükhəcmli yük daşınmalarında artan əhəmiyyətinə diqqət çəkərək vurğulayıb ki, Çindən gələn və Azərbaycandan keçən yüklərin həcmləri artır. Proqnozlara görə, bu dəhlizin yükaşırma qabiliyyəti növbəti 5-6 ildə 25 milyon tona çatacaq və sonrakı mərhələdə daha da böyük axıcılıq landşaftı formalaşacaq. Həmin coğrafiyanın böyük bir hissəsi isə Mərkəzi Asiyanı əhatə edir və Xəzər üzərindən Azərbaycan vasitəsilə Avropaya ünvanlanır. Bu isə faktiki olaraq sözügedən dəhlizin qlobal miqyaslı nəqliyyat habuna çevrildiyini göstərir.

Məhz Çin və Azərbaycanın artan təşəbbüskarlığı sayəsində Mərkəzi Asiya ölkələrinin Orta Dəhlizə cəlb olunması daha da aktuallaşıb və hüquqi-iqtisadi əsaslar yaranıb. 2024-cü ilin mart ayında Qazaxıstan Prezidenti Qasım-Comard Tokayevin Azərbaycana dövlət səfəri zamanı Siandan Bakıya gələn konteyner qatarının birgə qarşılanma mərasimi keçirilib və bu, Çin-Qazaxıstan-Azərbaycan nəqliyyat ittifaqının faktiki nümayişi kimi yadda qalıb. Qazaxıstan Çinlə iqtisadi-ticari münasibətlərin inkişafı fonunda Pekinin bu dəstəyinə arxalanaraq TransXəzərə olan ehtiyacını bəyan edib. Digər Mərkəzi Asiya ölkələri də bu dəhlizin imkanlarını dəyərləndirərək eyni mövqe nümayiş etdirir. Özbəkistanın, Qırğızıstanın, Tacikistanın dövlət başçılarının son dövrlərdə Azərbaycana səfərləri zamanı ən aktual mövzulardan biri də məhz bu nəqliyyat dəhlizinin genişləndirilməsi ilə bağlı olub.



### Qarabağ Bəyannaməsində Orta Dəhliz amili

Orta Dəhliz vasitəsilə daşımaların həcminin 4,2 milyon tona çatdırılması planlaşdırılır ki, bunun üçün tranzit xəttinin coğrafiyasını əhatə edən ölkələrin, xüsusilə də türk dövlətlərinin vahid nəqliyyat ailəsində birləşməsini zəruri edir. Şuşada keçirilən Türk Dövlətləri Təşkilatının (TDT) qeyri-rəsmi Zirvə görüşündə də Şərq-Qərb nəqliyyat dəhlizinin ən axıcı qolu kimi bu kommunikasiyanın əhəmiyyətinə toxunulub və TDT ölkələri tərəfindən imzalanan Qarabağ Bəyannaməsində Orta Dəhlizə inteqrasiyanın gücləndirilməsinə dair niyyətlər ifadə olunub. Bəyannamədə Orta Dəhlizin daha rentabelli və dayanıqlı işləməsi üçün TDT ölkələri tərəfindən nəqliyyat və tranzit prosedurlarının optimallaşdırılması və rəqəmsallaşdırılması, daha çox yükdaşıma həcminin artırılması məqsədilə özəl sektor üçün stimullaşdırıcı mexanizmlərin tətbiqi nəzərdə tutulur. Bu məqsədlə tərəflər dəniz limanları, dəmir və avtomobil yolları, logistika qovşaqlarının əsaslı şəkildə yenidən qurulması və infrastrukturların təmirinə investisiyalarını cəlb edilməsi, nəqliyyat əməliyyatları və gömrük prosedurlarının optimallaşdırılması üçün üzərinə öhdəliklər götürüb.

Göründüyü kimi, Azərbaycanın əsas oyunçu və mərkəzi coğrafiya olduğu TransXəzər dəhlizinin fiziki sxemi artıq formalaşmaq üzrədir. Bu dəhlizin növbəti dayanacağı Zəngəzur xətti olacaq ki, nəticədə Çin və Mərkəzi Asiya ölkələri ilə Avropa ölkələri arasında nəqliyyat əlaqələrinin şaxələndirilməsi tam təmin ediləcək. Beləliklə, ikitərəfli, üçtərəfli və çoxtərəfli əməkdaşlığın simvoluna çevrilən Orta Dəhlizdə Azərbaycan müasir geoiqtisadi və geosiyasi platformalarda yerini və mövqeyini daha da gücləndirəcək.

*E. CƏFƏRLİ*

# Azərbaycan Milli QHT Forumu USAID-lə əlaqədar ABŞ Prezidentinə və DOGE rəhbərinə müraciət ünvanlayıb



Azərbaycan Milli QHT Forumu fevralın 13-də ABŞ-ın Beynəlxalq İnkişaf Agentliyi (USAID) ilə əlaqədar ABŞ Prezidenti Donald Trampa və ABŞ Dövlət İdarəetməsinin Səmərəliliyi Departamentinin (DOGE-nin) rəhbəri cənab İlon Maska müraciət ünvanlayıb. AZƏRTAC xəbər verir ki, müraciəti Azərbaycan Milli Qeyri-Hökumət Təşkilatları Forumunun İdarə Heyətinin sədri Ramil İskəndərli səsləndirib. Müraciətdə deyilir: "Azərbaycan QHT-lərinin flaqmanı olan Azərbaycan Milli QHT Forumu olaraq USAID-in qlobal məkanda cinayətkar əməllərinin təftişində və ifşasında nümayiş etdirdiyiniz qətiyyətə, güclü iradəyə görə sizlərə dərin təşəkkürümüzü bildiririk.

Təəssüflər olsun ki, ötən uzun illər ərzində ABŞ vergi ödəyicilərinin pulları USAID-in korrupsiya yeminə çevrilib, Bayden-Blinken administrasiyasının qara şəbəkəsinin formalaşdırılması üçün istifadə olunub. Azərbaycan-ABŞ münasibətlərinin itirilmiş illərinə çevrilən Bayden-Blinken dövründə Azərbaycan cəmiyyətində USAID-in ölkədən qovulması, fəaliyyətinin dayandırılması ilə əlaqədar çağırışlar, ictimai qəzəb də artan xətt üzrə güclənib. USAID qrantları Azərbaycanda da ənənəvi, milli-mənəvi dəyərlərə təhqir mahiyyəti daşımaqla, ABŞ-ın bölgədəki imicinə və strateji maraqlarına zərbə vurub.

İctimailəşdirilən faktlar göstərir ki, 1991-ci ildən USAID Azərbaycanda müxtəlif adlar altında layihələrə 410 milyon ABŞ dollarından artıq vəsait xərcləyib. Yeni faktlar hazırda aktiv olan 17 milyon dollarlıq ABŞ-ın müxtəlif qrant layihələrində Azərbaycanın da adının keçdiyini göstərir.

Ümid edirik ki, siz USAID-in Azərbaycandakı cinayətlərinə də nəzər salacaq, ayrılmış qrantların təftişinin aparılmasına göstəriş verəcəksiniz.

600-dən çox üzv QHT-yə malik təşkilat kimi Azərbaycan ictimaiyyətinin belə bir araşdırmanın nəticələrini, qrant dəllal və dələduzlarının deşifrəsini səbirsizliklə gözlədiyini ifadə edirik".

# Bakıda müəyyənləşən hədəf irəliyə doğru vacib addımdır

*Yeganə BAYRAMOVA*

Müasir çağırışlar bir sıra mühüm nüanslar üzrə qlobal dünyadan vahid mövqe tələb edir. Buraya səslənən bəşəri dəyərlər - multikulturalizm, tolerantlıq kimi anlayışlarla yanaşı, qlobal təhlükələrə qarşı birgə mübarizənin təşkili, qlobal problemlərin aradan qaldırılması, xüsusilə, ekoloji təmizliyə riayət və dünyada ekologiyanın qorunması kimi prinsiplər də daxildir. Qlobal miqyasda baş verən bir sıra proseslər, o cümlədən intensiv texnoloji dəyişikliklər, resurslardan səmərəli istifadə olunması zərurəti və əlbəttə ki, sıfır emissiyasız iqtisadiyyat quruculuğuna keçid proseslərində ekologiya amili mütləq nəzərə alınmalıdır.

Bu günlərdə Braziliyada Riu-Branku İnstitutunda mühüm konfrans baş tutub. "Təmiz enerjiyə keçidin qarşısını almaq artıq qeyri-mümkündür; maliyyə yol xəritəsi, adaptasiya və ədalətli keçid əsas amillərdir" adlı konfransda mühüm məqamlara toxunulub.

**Yeni qlobal hədəf irəliyə doğru vacib addımdır!**

BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının (BMT İDÇK) icraçı katibi Saymon Stil bildirib ki, Bakıda razılaşdırdığımız iqlim maliyyələşdirilməsi üzrə yeni qlobal hədəf irəliyə doğru vacib addımdır: "Təbii ki, ilkin formasında bütün ehtiyacları ödəyə bilməyəcək. Ancaq 300 milyard dollar ilkin mərhələdir. İnkişaf etməkdə olan ölkələrə daha çox maliyyə vəsaiti ayrılmalıdır, çünki onlar xarici borcları ödəmək üçün ayırdıqları yüksək sərfiyyat və yüksək kapital dəyəri ilə mübarizə aparmağa məcburdurlar".



S.Stil həmçinin vurğulayıb: "On il əvvəl Parisdə maliyyə vəsaitlərinin yönləndirilməsi ilə bağlı razılığa gəldik. Qərara alındı ki, bütün maliyyə axınları iqlim öhdəliklərimizə uyğun olmalıdır. Beynəlxalq maliyyə sisteminin yenidən istiqamətləndirilməsi çətin işdir. Lakin bu il qarşımıza məqsəd qoymuşuq ki, addım-addım 1,3 trilyon dollar həcmində maliyyələşdirməni necə təmin edəcəyimizi müəyyənləşdirək. Hər bir ölkədə uğurun məcburi şərti iqlim dəyişikliyi ilə mübarizə tədbirlərinin gətirdiyi böyük faydalara hər kəsin ədalətli çıxışının təmin edilməsidir. Ona görə də 2025-ci ildə dəyişiklik əsas istiqamətə çevrilməlidir".

S. Stil bildirib ki, nəticələrə nail olmaq üçün koalisiyaların yaradılması on ilin həlledici dövrüdür. Qeyd olunub ki, bu müddətdə ölkələr daha böyük fayda əldə etmək üçün liderlər sırasında olmağa can atacaqlar: "COP sammitlərində hər bir ölkənin bütün istəyi qəbul olunmur. Hər məsələ ilə bağlı yekdil olmaq lazımdır. Səhnə arxasında bütün gücünü səfərbər edərək strateji vacib addım atan koalisiyalar haqqında eşidəndə inanıram ki, bu güc istər tropik meşələrlə bağlı olsun, istər birja, istər ədalətli mənfəət tələb edən vətəndaş və ya öz öhdəliklərinə sadiq qalan və sektorları üçün inkişaf yolları axtarıb tapan liderlərlə bağlı olsun, biz bu qarşısıalınmaz transformasiyadan maksimum fayda əldə edə biləcəyik".

**Ən geci sentyabra qədər...**

## Braziliyada milli iqlim planları barədə müzakirələr aparılıb

S.Stilin sözlərinə görə, ən geci sentyabra qədər Milli İqlim planları Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Katibliyinin masasının üzərində olmalıdır ki, COP-dan qabaq dərc olunacaq Milli Səviyyədə Müəyyən Edilmiş Töhfələr (NDC) üzrə Xülasə Hesabatında öz əksini tapsın: "Milli İqlim Planları və ya iqlim jarqonu ilə desək, Milli Səviyyədə Müəyyən Edilmiş Töhfələr həlledici əhəmiyyətə malikdir. Biz artıq bir sıra böyük iqtisadi mərkəzlərin, o cümlədən Braziliya və Böyük Britaniyanın yeni və daha iddialı milli iqlim planlarını təqdim etməklə, iqlim dəyişikliyi ilə mübarizə tədbirlərini gücləndirmək niyyətində olduqlarına dair aydın siqnallar verdiyini müşahidə edirik. Çünki bu, onların iqtisadi, eləcə də vətəndaşlarının maraqlarına tamamilə cavab verir. Bu planlar daha güclü iqtisadiyyat və cəmiyyətlərin qurulması üçün bir şablon rolunu oynayır (bir nümunədir), buna görə onlar iqtisadiyyatın bütün sektorlarını və bütün istixana qazlarını əhatə edir. Onlar işçilər üçün faydalı olmalı, bazarlara aydın mesajlar verməli və təmiz, dayanıqlı infrastrukturun yaradılması üçün maliyyə axınını təmin etməlidir. Daha ucuz və təmiz enerjidən istifadə etməklə, bu planlar hər bir insana maddi fayda verə bilər. Bu milli planlar ölkələr tərəfindən cari əsrdə hazırlanacaq ən mühüm strateji sənədlərdən biri olduğu üçün onların keyfiyyətinə xüsusi diqqət ayrılmalıdır. Dünyanın əksər ölkələri yeni planlarını bu il təqdim edəcəklərini bəyan ediblər".

**Təmiz enerji daha məntiqlidir**

S.Stil həmçinin qeyd edib ki, iqtisadi imkanların miqyasının böyük olması səbəbindən təmiz enerjiyə keçidin qarşısını almaq mümkün deyil: "Təkcə bir il ərzində təmiz enerji və infrastruktura 2 trilyon ABŞ dolları həcmində sərmayə qoyulub. Əminliklə demək olar ki, bu, nümayişkaranə xeyirxahlıq jesti deyil. Bu, fosil yanacağa qoyulan sərmayə həcmindən iki dəfə çoxdur. İnvestorlar başa düşürlər ki, təmiz enerji daha məntiqli seçimdir".

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Məqalə "Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi"nin maliyyə dəstəyi ilə "Ekologiya və ətraf mühitin mühafizəsi" istiqaməti üzrə hazırlanmışdır**

# Terrorun və çevrilişlərin maliyyələşdirilməsi...

## USAID-in xarici ölkələrdəki fəaliyyəti araşdırılır

USAID-in layihələrinin dayandırılmasının ardından başlanan proses davam etməkdədir. Artıq ABŞ hakimiyyəti açıq kontekstdə qurumun qanunsuz əməlləri ilə bağlı çıxışlar edir, açıqlamalar verirlər. ABŞ Dövlət katibi Marko Rubio USAID-in fəaliyyətindən narahat olduqlarını, onların müstəqil şəkildə fəaliyyət göstərən qeyri-hökumət təşkilatı olmadıqlarını vurğulayıb. Dövlət katibi sözügedən təşkilatın xalqın vergiləri hesabına əldə etdiyi gəlirlə kimləri maliyyələşdirdiklərini, nə qədər vəsait ayırdıqlarını, podratçılarının kim olduğunu gizlətdiklərini bildirib.

Qeyd edək ki, bir müddət öncə Azərbaycan USAID-in ölkədə fəaliyyət göstərməsi üçün hüquqi əsası olmadığı və fəaliyyətini dayandırması barədə bildirişi ABŞ tərəfinə rəsmən göndərib. Bəzi KİV orqanları USAID-in Azərbaycandakı fəaliyyətini dayandırıb-dayandırmamasını öyrənmək üçün təşkilatın ofisində olublar - bildirilib ki, bir aydır ofisə USAID-in əməkdaşlarından heç kim gəlmir.

### Pauerin sərvəti 23,3 milyon dollar artıb

Qurumun baş inspektoru isə dərc olunan tənqidi hesabatın ardından vəzifəsindən azad edilib. CNN-in məlumatına görə, hesabatda Tramp administrasiyasının USAID işçilərinin sayını kəskin şəkildə azaltmasının mənfi nəticələri ətraflı təsvir olunub. Bununla belə, agentliyin keçmiş baş inspektoru Pol Martinin aldığı işdən çıxarılma məktubunda onun vəzifədən azad edilməsinin səbəbi açıqlanmayıb. Qeyd edək ki, USAID tərəfindən maliyyələşdirilən layihələr açıqlanıb və bəlli olub ki, qurum xüsusilə transgender təbliğatına və terrora yönəlik fəaliyyətə maliyyə istiqamətləndirib.

Bu arada USAID-in sabiq rəhbəri Samanta Pauerin sərvəti açıqlanıb. Bildirilib ki, Pauer öz pullarını son üç ildə 23,3 milyon dollar artırıb. Bunu "X" səhifəsində sahibkar Mario Nafal bildirib - o, həmçinin qurum rəhbərinin maaşının ildə 180 min dollar olduğunu deyib. Qeyd edək ki, 2024-cü maliyyə ilində USAID layihələri üçün 36 milyard dollara yaxın vəsait ayrılıb. Son 9 ildə isə ümumilikdə USAID xətti ilə 335 milyard dollar xərclənib.

### USAID-in ardınca...

Qeyd edək ki, USAID ilə başlanan prosesin davamının da olacağı gözlənilir. Belə ki, bir müddət əvvəl Tramp komandasının ən fəal üzvü sayılan İlon Mask ABŞ-ın "Azadlıq radiosu" və "Amerikanın səsi" radiostansiyalarını bağlamalı olduğunu demişdi - Mask bu media orqanlarına heç kimin qulaq asmadığını və onların fəaliyyətinə ildə təxminən 1 milyard dollar xərcləndiyini bildirmişdi. "Bəli, onları bağlayın. Boğucu bürokratiya xaric olmaqla Avropa indi azaddır. Artıq heç kim onlara qulaq asmır", - deyə o qeyd etmişdi. Xatırladaq ki, "Azadlıq radiosu" və "Amerikanın səsi" bir sıra digər media orqanları kimi ABŞ hökuməti tərəfindən maliyyələşdirilir və ABŞ Qlobal Media Agentliyi tərəfindən idarə olunur. Bu mənada yeni mərhələdə onların da maliyyəsi dayandırıla bilər. Tramp administrasiyası "The New York Times", "NBC News", "NPR" və "Politico"ya xəbərdarlıq edib - fevralın 14-dək Pentaqondakı ofislər boşaldılmalıdır, onların yerini isə mühafizəkar və ifrat sağçı nəşrlər tutmalıdır: "The Times", "One America News", "Breitbart News" və "HuffPost". Bir müddət öncə ABŞ-ın keçmiş milli kəşfiyyat "şefi" Rik Qrenell də "Amerikanın səsi" və "Azadlıq Radiosu"nun qərəzli olduğunu bildirmiş, bu media platformalarının radikal solçuların meydanına çevrildiyini iddia etmişdi.

Qeyd edək ki, bəzi siyasi ekspertlər USAID-in ardınca bu informasiya vasitələrinin də fəaliyyətinin dayandırılmasını dünyada rəngli inqilablar dövrünün başa çatması kimi dəyərləndirirlər.












### USAID hansı ölkələrdə inqilablar planlaşdırıb?

Ortadakı iddialar isə öz təsdiqini tapmaqdadır - belə ki, USAID-in xarici ölkələrdə rəngli inqilabları, çevrilişləri maliyyələşdirməsi ilə bağlı xəbərlər ard-arda yayılmaqdadır. Məsələn, Serbiya Prezidenti Aleksandar Vuçiç xarici ölkələrin onu vəzifəsindən uzaqlaşdırmaq üçün təxminən 3 milyard avro ayırdığını bildirib. "Mənim devrilməyimə nə qədər pul qoyulduğunu öyrənəndə, həqiqətən heyrətləndim. Son 10 ildə xaricdən 1,5 milyard qoyulduğunu düşünürdüm. Hesablamağa başlayanda isə 3 milyard avro alındı".

Vuçiç əlavə edib ki, Serbiyada "sülh aksiyaları"nı maliyyələşdirən təşkilatlar arasında USAID-in qrant ayırdığı fond da olub. "Məsələn, "Trag" adlı fond 28 milyon avro alıb, siz heç onun haqqında eşitmisiniz?", - deyə Vuçiç bildirib.

Slovakiyanın Baş naziri Robert Fitso isə İlon Maska məktub göndərərək, USAID-in "ləğv edilməsi"nə görə təşəkkürünü bildirib. Slovakiya hökumətinin başçısı bu addımın vacibliyini qeyd edib və milyarderdən "faydalı" təşəbbüsləri, onun fikrincə, ölkənin daxili proseslərinə kobud müdaxilə təşkil edən təşəbbüslərdən ayırmağa kömək etməsini istəyib.

USAID-in "qara" fəaliyyəti ilə bağlı Venesueladan da mühüm xəbərlər yayılmaqdadır. Belə ki, sağçı müxalifət USAID-dən aldığı maliyyə vəsaitlərindən Venesuela hökumətinə qarşı çevriliş cəhdi üçün istifadə edib. Bu barədə Bolivar Respublikasının baş prokuroru Tarek Vilyam Saab "Cable a Tierra" radiosuna müsahibəsində bildirib. "Venesuelanın USAID-dən pul alan sağçı ekstremistləri qanuni hökuməti devirmək məqsədilə bu vəsaitlərdən istifadə etdiklərinə görə istintaq altındadırlar", - deyə Saab qeyd edib.

O bildirib ki, hazırda özünü prezident elan etmiş Xuan Quaydonun qondarma müvəqqəti hökumətinin USAID vəsaitlərindən qanunsuz istifadəyə imkan verən korrupsiya əməlləri ilə bağlı araşdırmalar aparılır. Saab həmçinin qeyd edib ki, 2023-cü ildə "Interpol"a Quaydo və onun əlaltılarının "aktivlərin oğurlanması, hakimiyyətin qəsb edilməsi, sui-qəsd, terror aktlarına yardım, xəyanət" ittihamları ilə həbs edilməsi və Venesuela ədalət mühakiməsinə təhvil verilməsi üçün sorğu göndərilib.

### Terrorun maliyyələşdirilməsi

Əsas məsələlərdən biri isə USAID-in terror qrupları ilə sıx əlaqələridir. Qeyd edək ki, Ağ Evin dərc olunan USAID tərəfindən maliyyələşdirilən bəzi layihələrinin siyahısında məhz terrorçulara istiqamətlənən "xərclər" yer alıb. Məsələn, Əfqanıstanda suvarma kanallarının yaradılması və gübrə alınması məsələsinə ayrılan pulların daha çox narkotik istehsalına yardım etməsi heç kimdə şübhə oyatmır. Eləcə də "Əl-Qaidə" üzvləri üçün 100 min porsiya yemək təmin edilməsinə ayrılan pullar birmənalı qarşılana bilməz.

Son məlumata görə isə, USAID tərəfindən göndərilən humanitar yardım Livanda "Hizbullah"ın silah anbarında tapılıb. "The New York Post" İsrail ordusunun ehtiyatda olan hərbi qulluqçusuna istinadən məlumat verib. Bundan başqa, USAID "Əl-Qaidə"nin gələcək liderini maliyyələşdirməkdə şübhəli bilinir.

Kanadalı jurnalist Ketrin Herric "X" sosial şəbəkəsində ABŞ Beynəlxalq İnkişaf Agentliyinin "Əl-Qaidə"nin gələcək lideri Ənvər əl-Avlakinin kollec təhsili üçün tam şəkildə ödədiyi ödəniş qaiməsinin fotoşəklini yayıb. Qeyd olunur ki, həmin şəxs ABŞ kəşfiyyat orqanları tərəfindən 2001-ci il sentyabrın 11-də törədilən terror aktlarında, eləcə də 2000-ci illərin ikinci yarısında bir sıra hücumlarda iştirakda şübhəli bilinirdi. Terrorçu 2011-ci il sentyabrın 30-da Yəməndə ABŞ-ın pilotsuz uçuş aparatının endirdiyi zərbə nəticəsində öldürülüb.

*P.İSMAYILOV*

# S.Rüstəm uğundu: – Ədə, dedi, - dərddən yox ey, dörddən...

Cümə Qiraəti






"21 Azər" Nezhətinin (inqilabının) yubiley gecəsini keçirmək üçün Qubaya getmişdik. Üç nəfər idik. Yoldaşlarımdan biri "21 Azər" Nezhəti haqqında məruzə etdi. Biri də öz xatirələrini danışdı. Növbə mənə çatdı. Kürsüyə qalxıb bir neçə şeir oxudum. Salondakılar bizi hərarətlə qarşıladı. Rəsmi hissə qurtardı. Səhnədən düşün salonda birinci sırada əyləşdik. Konsert başlandı. Müğənnilər növbə ilə oxuyurdular. Yaxşı da oxuyurdular. Ancaq hamı Rübabə xanımı gözləyirdi. Rübabə xanım səhnədə görünəndə hərarətli alqışlar salonun daş-divarlarını titrətdi. Onun çatma qaşları sanki baş-başa vermiş iki misra idi. Biri hicrandan danışırdı, biri vüsaldan... Özü də Rübabə yanğısıyla, Rübabə nisgiliylə, Rübabə həsrətiylə danışırdı...

Konsertdən sonra qonaq evində ziyafət verildi. Mən masa arxasında Rübabə xanımla qabaq-qənşər əyləşmişdim. Yubiley gecəsinin iştirakçıları sağlıq deyir, yeyir, içirdi. Mən də:- İcazənizlə,-deyib Rübabə xanımın qədəhinə konyak süzdüm. O, etiraz etmədi. Mənə demişdilər ki, Rübabə xanım arabir içir. Sənətkar adamdır. Bəlkə ilhama gəlmək üçün içir. Nə olsun qadındır? İndi qadınlar da içir. Bəlkə Rübabə xanım dərddən içir. Özü də Vətən dərdindən! Vətən dərdindən də böyük dərd olarmı? Bir dəfə şəhər içində Sahib Şükürova rast gəldim. Mən Təbriz Dövlət Filarmoniyasında müdir olanda , o da solist idi. O məni "İnturist"də şama qonaq etmək istədiyini dedi. Etiraz etmədim. Biz "İnturist"in yemək salonuna daxil olanda Süleyman Rüstəmin, Ənvər Məmmədxanlının, Mikayıl Rəfilinin bir masa ətrafında əyləşib şam etdiklərini gördük. Mən bu söz ustalarına salam verib yanlarından keçəndə üçü də qalxıb bizi başqa masa arxasında əyləşməyə qoymadılar. Öz yanlarında əyləşdirdilər. Biz də yeyib-içməyə başladıq. Arada dayanıb Süleyman Rüstəmin duzlu zarafatlarına qulaq asmaq istədik. Bu zaman M.Rəfili dedi ki, siz bizə baxmayın. Yeyin, için! Biz dörddən içirik. S.Şükürov nisgillə dedi ki, Vallah, elə biz də dərddən içirik. S.Rüstəm uğundu: – Ədə, dedi, - dərddən yox ey, saat dörddən içirik. Bu dəfə hamımız uğunduq...

Ziyafətdən sonra biz qonaq evindəki otaqlarımıza çəkildik. Gecə yarıdan keçirdi. Yorğun idi. Soyunub çarpayıda uzanmaq istəyirdim. Birdən otağın qapısı döyüldü. Qapını açdım. Gələn Rübabə xanım idi. Dərhal stul çəkib: - Əyləşin! – dedim. Əyləşmədi. – Yox! - dedi. – Gedək mənim otağıma. Mən səmimiyyətlə: - Gedək" – dedim. Getdik. Bu dəfə Rübabə xanım stul çəkdi. Mən əyləşdim. O əyləşmədi. Sual dolu maraqla: - Siz "Mən də gətirdim" şeirini əzbərdən bilirsiz? – deyə məndən soruşdu. Mən etirafla: - Bəli! – dedim. Rübabə xanım əl çantasını götürüb açdı. İçindən qələm-dəftər çıxartdı. Deyəsən şeiri yazmaq istəyirdi. Mən maraqla! – Siz o şeiri yazmaq istəyirsiniz? – deyə müsahibimdən soruşdum. Rübabə xanım qətiyyətlə: - Bəli – dedi. Mən təəccüblə: - Axı, eşitmişəm ki, siz haçansa, hardasa bu şeiri "Segah" üstündə oxuyubsunuz. Deməli, əzbər bilirsiniz – dedim. Müsahib etirafla: - Doğrudur! - dedi. Bu şeiri musiqi məktəbinə qəbul olunanda oxumuşam. Özü də "Segah" üstündə! Bunu da məndən imtahan götürən musiqi müəllimi özü xahiş etmişdi. Ancaq o gündən sonra gör nə qədər vaxt keçib. Bəlkə bu şeiri indi oxuyanda bir sözünü dəyişik saldım, ya da unutdum. Bəs sonra? Onda bu, müəllifə hörmətsizlik olar. Yox! Mən dəqiq adamam. Başqalarının da dəqiq olmalarını istəyirəm. Sabah Bakıda keçiriləcək yekun yubiley gecəsində bu şeiri oxumaq istəyirəm. Özü də "Segah" üstündə! Ona görə də sizdən xahiş edirəm, şeiri oxuyasınız, mən də yazım – dedi. Mən şeiri hərarətlə oxudum. Bəli! Elə hərarətlə oxudum ki, sanki, indicə yazmışdım. Rübabə xanım yazırdı. Ancaq mənim səsim, onun əli titrəyirdi... O, şeiri yazıb qurtardı. Qələm-dəftərini əl çantasına qoydu. Səhər yola düşəcəkdik. Mən Rübabə xanımla xudahafizləşib otağıma qayıtdım. Soyunub yatağıma girdim. Ancaq yata bilmədim. Rübabə xanım öz otağında "Humayun" üstündə həzin-həzin oxuyurdu. Yadıma Bakıdakı sevimli bəstəkarımız Cahangir Cahangirovla bir telefon söhbətimiz düşdü. O dedi ki, mən müharibə illərində Təbrizdə olanda böyük sənətkar Əbülhəsənxan İqbalın Təbrizdə yaşadığını bilirdim. O ustad xanəndə ilə görüşmək arzusu məni rahat qoymayırdı. Ancaq bu arzumu öz yoldaşlarıma deməyə utanırdı. Bir gün cürətlənib öz arzumu unudulmaz yazıçımız Əvəz Sadığa bildirdim. O zaman Əvəz Sadıq Təbrizdə incəsənət məsələlərilə məşğul olurdu. O, təkidlə mənə: Utanmaq gərək deyil! Gedək! – dedi. Biz Əbülhəsənxanın evinə yollandıq. O bizi azərbaycanlılara məxsus qonaqpərvərliklə qarşıladı. Otağın döşəməsi boyda yerə sərilmiş xalça üstündə əyləşdik. Bir az sonra qarşımızda xudmani süfrə açıldı. Çay, şirniyyat, meyvə gəldi. Yedik, içdik. Sonra o taydan-bu taydan söhbət etdik. Söz Şimali Azərbaycanın musiqi xadimlərindən düşəndə Əbülhəsənxan dedi ki, sizdə Seyid Şuşinski yaxşı oxuyur. ( Rübabə xanımın sənət müəllimi də Seyid Şuşinski olub). Xoşuma gəlir. Minnətdarlıqla Əbülhəsənxana dedim ki, o da sizi iftixarla ustad adlandırır. Əbülhəsənxan fərəhlə gülümsədi. Biz bilirdik ki, ustad nadir hallarda oxuyur. Mən Əvəz Sadığın qulağına pıçıldadım ki, görəsən ustad bizə bir şey oxuyarmı? Axı, onun ecazkar səsinin vurğunu olsam da, səsini canlı eşitməmişəm. Ustad həssaslıqla: - Cavan oğlan nə buyurur? – deyə Əvəz Sadıqdan soruşdu. Əvəz Sadıq səmimiyyətlə arzumu ona bildirdi. Ustadın rəngi bozardı, sonra tutuldu. Daha sonra açıldı. Dediyimə peşman oldum. Ancaq sən demə, mən düşünən tək deyilmiş. Ustad uzu tufan qabığı tutulub-açılan havanı andırırmış. O, bizə böyük hörmət əlaməti olaraq bir "Humayun" dindi, nə dindi! Mən Əbülhəsənxanın evində olduğumu tamam unutdum. Sandım ki, bir dağın güllərlə naxışlanmış ətəyindəyəm. Dağın zirvəsindəsə bir büllur şəlalə çağlaya-çağlaya axıb tökülür. Doğmalıq, mərdlik, xeyirxahlıq nəğməsi oxuyur... Birdən yanımda bir pıçıldı eşitdim: - Sənə nə oldu? Rəngin niyə avazıyıb? Pıçıldayan Əvəz Sadıq idi. Bu sözləri də mənə o deyirdi. Sən demə, ustadın oxuduğu "Humayun"un yanğılı xalları iliyimə qədər hopub ruhumu bədənimdən ayırıbmış...

Mən Rübabə xanımın həzin-həzin oxuduğu "Humayun"un məhrəm qanadları altında yuxuya getdim. Sonra yuxuda da Rübabə xanımı gördüm. O yenə də səhnədə vüqarla dayanıb oxuyurdu. Səsində məyusluq da vardı, məğrurluq da, kövrəklik də vardı, məntinlik də, intizar da vardı, qətiyyət də...

Maşında yol boyu o, danışırdı. Mən qulaq asırdım. Bəli! O, sənətin qüdrətindən, sənətkarın şöhrətindən hərarətlə danışırdı...

Bakıda ayrıldıq. Yenə yubiley gecəsində görüşəcəkdik. Dekabrın 12-ci gecəsi idi (bizim həm o tayda Milli hökumət qurduğumuz gecə, həm də düz bir il sonra bu taya keçdiyimiz gecə). Salonda boş yer yox idi. İynə atsaydın yerə düşməzdi. Məruzədən sonra konsert başladı. Konsertin son akkordlarını Rübabə xanım vuracaqdı. O, hərarətli nəfəsiylə səhnədə ulduz yox, günəş yandıracaqdı. Rübabə xanım oxuyurdu. "Mən nə gətirdim"i "Segah" üstündə oxuyurdu. Mən qadir nəğməkarın yanıqlı "Segah"ının müşayiətilə neçə-neçə qara köynəkli gecənin içindən keçə-keçə Arazın ağ dalğaları üstə qara qanadlarımı gərmiş buz nəfəsli narahat bir gecəyə düşürdüm. Bu gecənin içi elə dərin, elə qaranlıq idi ki, səhərin haçan açılacağı məlum deyildi. Bəli! Bu gecə də qeyri-adi gecəydi, o səhər də qeyri-adi səhər idi. Mən isə belə bir zamanda bu şeiri Naxçıvanda yazdım. Bu şeir yalnız mənim sənətimin məhsulu deyildi. Həm də ürəyimin harayı idi. Səsi çox uzaqlara getməli idi. Rübabə xanım mənə baxa-baxa oxuyurdu. Gözləri yaşarmışdı. Sanki bu fəryadla dolu şeirin hər misrasını tamaşaçılara daha aydın göstərsin deyə, göz yaşlarında yuyub parlatmaq istəyirdi. Mən isə yenə birinci sırada tərəddüd içində əyləşmişdim. Doğrusu, şeirimin hər misrasının parlamasına sevinsəm də, sevimli müğənninin gözlərinin yaşarmasını istəmirdim. Bir də gördüm ki, öz gözlərimdən də yanaqlarıma yaş axır. Konsert qurtardı. Mən geyim otağının qapısını döydüm. İçəridən Rübabə xanımın: - Buyurun!– deyən məlahətli səsi gəldi. İçəri keçdim. O, paltarını dəyişmişdi. Görüşdük. Mən qardaş məhəbbətilə Rübabə xanımı qucaqlayıb yaş üzündən öpdüm. Bu, istedadlı müğənniyə təşəkkürüm idi. O sevindi. Həsrətlə mənə: -Bir arzum var – dedi. Mən maraqla: "Nədir o arzu?" – deyə soruşdum. Rübabə xanım nisgillə: - "Mən nə gətirdim"i Təbriz səhnəsində oxuyam" – dedi. Mən inala: - İnşaallah, oxuyarsınız – dedim. Sonra yenə ayrıldıq. Evə yollandım. Yolda başımı qaldırıb göyə baxdım. Payızın sonu olsa da göydəki ulduzlarn sarı yarpaqlara bənzəmirdi. Yox! Büllurlaşa-bülurlaşa parlayırdı. Bu ulduzlar salonda Rübabə xanımı dinləyən adamların yanaqlarında gilələnən göz yaşlarını andırırdı. Ancaq bu göz yaşlarından kədər uduzları yox, sevinc ulduzları doğmalıydı.



*Əli Tudə...*

Təəssüf ki, Rübabə xanım "Mən nə gətirdim"i Təbriz səhnəsində oxuya bilmədi. Bir gün məşhur müğənnini yana-yana son mənzilə sola saldıq. Səsindəki Vətən yanğısını, nəfəsindəki vüsal həsrətini, sənətindəki rübab hikmətini yadigar saxladıq. Tale nə deyir-desin, nə yazır –yazsın, inanıram ki, gün gələcək, Rübabə xanımın məlahətlə oxuduğu təravətli mahnılar, əzəmətli muğamlar yazılmış lentlər onun doğulduğu qədim Ərdəbildə də, Təbrizdə də, Urmiyədə də, Mərənddə də, Zəncanda da, Xoyda da, Salmasda da... məhrəm-məhrəm səslənəcəkdir. Rübabə xanımın şeiriyyət dolu nəfəsində həmişə Savalan güllərinin ətri gələcəkdir. O ülviyyət abidəsi olan dağın xatirələrlə naxışlanmış əlvan sinəsində dincələnlər Vətənin nəğməkar qızını günəşli gündüzlərdə də, aylı gecələrdə də minnətdarlıqla anacaqlar...

# Trampdan növbəti addım

## ABŞ-ın konsulluqları bağlana bilər



Trampın 20 yanvar tarixində keçirilən inauqurasiyasından dərhal sonra, milyarder İlon Maskın rəhbərlik etdiyi Hökumətin Səmərəliliyi İdarəsi (DOGE) ABŞ büdcəsinin xərclər bölmələrinin genişmiqyaslı yoxlanışına başlayıb. Ümumilikdə, iş adamı dövlət xərclərini 2 trilyon dollar azaltmağı planlaşdırır.

ABŞ-ın yeni prezidenti Donald Trampın öz səlahiyyətlərinin icrasına başladığı gündən imzaladığı qərarlar qlobal mediada ən önəmli gündəm mövzusuna çevrilib. Qeyd edək ki, Trampın bir sıra iqtisadi-siyasi qərarları, xüsusilə ABŞ-ın dünya ölkələrinə maliyyə yardımını 90 gün ərzində dayandırması, Kanada, Meksika və Aİ-nin üzv ölkələrindən idxal olunan mal və məhsullara yeni taariflər tətbiq etməsi, ABŞ-ın dəniz sularında neft-qaz ehtiyatlarının istismarı ilə bağlı məhdudiyyətlərin aradan qaldırılması, o cümlədən ABŞ-ın Ümumdünya Səhiyyə Təşkilatı, BMT-nin İnsan Hüquqları Təşkilatı və qlobal iqlim sazişi - Paris sazişindən çıxması ilə bağlı qərarları ətrafında ciddi fikir mübadilələri aparılır.

NBC kanalı müəyyən mənbələrə istinadən xəbər verib ki, Tramp administrasiyası Dövlət Departamentinin xərclərini azaltmaq üçün ABŞ-ın bəzi ölkələrdə konsulluqlarını bağlaya bilər. Məlumatda bildirilir ki, söhbət Sakit okean adaları, Kanada və Meksikadakı, həmçinin Avropada - xüsusilə Almaniya və Fransadakı konsulluqlardan gedir.

Telekanal qeyd edir ki, Tramp artıq bu təşəbbüslə tanış olub, lakin onun həyata keçirilmə vaxtı ilə bağlı qərar hələ qəbul edilməyib. Dövlət Departamenti isə öz növbəsində konsulluqlardan fəaliyyətləri ilə bağlı məlumat tələb edib.

Maraqlıdır, İlon Maskın prezident Donald Trampa bununla bağlı təklifi hansı iqtisadi amildən irəli gələ bilər? Trampın belə bir qərara imza atacağı təqdirdə bu, ABŞ-ın bölgə siyasətinə nə dərəcədə təsir göstərəcək?

**İqtisadi hədəflərə daha çox üstünlük verilir**

Məsələ ilə bağlı politoloq Aytən Qurbanova "Yeni Azərbaycan" qəzetinə şərhində qeyd edib ki, Tramp administrasiyasının qlobal strategiyasında iqtisadi hədəflərə daha çox üstünlük verilir. "Məlumdur ki, Donald Tramp və onun komandasının ən önəmli aktoru olan İlon Mask siyasi maraqların iqtisadi hədəflərə tabe etdirilməsi istiqamətində sürətli addımlar atmağı hədəfləyirlər. Əslində Trampın birinci prezidentliyi dönəmi bu istiqamətdə addımların atıla biləcəyi ehtimalını daima gündəmdə saxlamağa icazə verən əsas amil idi. Ona görə də, qəbul edilən ilk qərarlar heç də təəccüb yaratmasa da, kifayət qədər çox sualları cavabsız qoyub. Belə ki, xərcləri azaltmaq üçün qəbul edilən qərarların hər biri böyük müzakirələrə səbəb olub," - deyə A.Qurbanova bildirib.

**Birmənalı qarşılanmayan qərarlar...**

Politoloq vurğulayıb ki, ABŞ Dövlət Departamentinin xərclərini azaltmaq üçün bəzi ölkələrdə konsulluqların bağlanmasının mümkünlüyü ilə bağlı məsələ xüsusilə diqqət mərkəzində olan mövzuya çevrilib: "Bu qərar iqtisadi maraqlar kontekstində uğurlu olsa belə, Amerika kimi hegemon dövlətin strateji hədəflərinə ciddi zərbə vura bilər. Xüsusilə konsulluqların bağlanması müzakirə olunan dövlətlərin siyahısına nəzər yetirdikdə, Amerikanın strateji hədəflərində ciddi dəyişikliklərin ola biləcəyi ehtimalı daha çox diqqət cəlb edir". Ardınca A.Qurbanova vurğulayıb ki, Trampın xarici siyasətdə addımları ABŞ-ın müttəfiqləri üçün xüsusi əhəmiyyət kəsb edəcək. "Bildiyimiz kimi, Qərb periferiyası ABŞ-ın ənənəvi xarici siyasətində "həyati məkan" olaraq dəyərləndirə biləcəyimiz bölgədir. Amma Tramp administrasiyasının ilk sərt bəyanatları və qərarları məhz bu bölgələri hədəf alıb. Əvvəl Meksika və Kanada ilə bağlı sərt bəyanatlar, həmçinin Avropa İttifaqından ixrac edilən polad və alüminiuma gömrük rüsumunun tətbiq olunması ilə bağlı qərarın qəbul edilməsi birmənalı qarşılanmamışdı".

**Növbəti qərar, yoxsa ciddi mesaj...**

"İndi isə Kanada, Meksika və Sakit okean adaları ilə yanaşı İttifaqın iki ən önəmli aktoru hesab edilən Almaniya və Fransada konsulluqların bağlanması ilə bağlı müzakirələr ciddi mesaj xarakteri daşıyır. Düşünürəm ki, bütün bu addımlar yeni dünya nizamında qüvvələr balansının dəyişməsi uğrunda qlobal aktorlar arasında gedən ciddi mübarizənin aydın təzahürləridir," -deyə A.Qurbanova əlavə edib.

*Yunis ABDULLAYEV*

# Putin və Əl-Şəraa arasında ilk təmas

## Rusiya Əsədi təhvil verəcəkmi?

Moskva Suriyanın yeni hakimiyyəti ilə əməkdaşlıqda maraqlı ola bilər - qeyd edək ki, fevralın 12-də Rusiya prezidenti Vladimir Putin ilə Suriyanın keçid dövrünün prezidenti Əhməd Əl-Şəraa arasında telefon danışığı baş tutub. Rus KİV-inin məlumatına görə, telefon danışığı zamanı Putin və Əl-Şəraa Suriyadakı mövcud vəziyyətlə bağlı fikir mübadiləsi aparıblar. Vladimir Putin Rusiya tərəfinin Suriya dövlətinin birliyi, suverenliyi və ərazi bütövlüyünə, o cümlədən Suriyada sosial-iqtisadi vəziyyətin yaxşılaşdırılmasına dəstək göstərməyə hazır olduğunu bildirib.



İkitərəfli əməkdaşlığın inkişafı üçün təmasları davam etdirməklə bağlı razılığa gələn dövlət başçıları XİN rəhbərlərinə iki ölkə arasında "güclü strateji əlaqələrin qurulması istiqamətində müəyyən işlərin görülməsini tapşırıb. Putin Suriyanın yeni XIN rəhbəri Əsəd Həsən əş-Şibani Sergey Lavrovla görüş üçün Moskvaya dəvət edib.

Xatırladaq ki, bundan öncə Rusiya Xarici İşlər Nazirliyinin idarələrarası nümayində heyəti Dəməşqə səfər etmişdi. Rusiya XİN rəhbərinin müavini Mixail Boqdanov yerli mətbuata səfər ilə bağlı məlumat verərkən bildirib ki, heyət Suriyanın yeni hakimiyyətinin rəhbəri ilə konstruktiv danışıqlar aparıb - bu baxımdan o, iki ölkə arasında münasibətlərin ənənəvi xarakter daşıdığını vurğulayıb.

Suriyadakı Rusiya hərbi bazalarının taleyinə gəlincə, Boqdanov bu istiqamətdə danışıqların davam edəcəyini qeyd edib.

**Əməkdaşlıq kimə nə vəd edir?**

Məsələ ilə bağlı politoloq Əlimusa İbrahimov "Yeni Azərbaycan" qəzetinə şərhində qeyd edib ki, Putin ilə Əl-Şəraa arasında ilk təmas Rusiya-Suriya münasibətlərinin normallaşmasına müsbət təsir göstərə bilər. "Bəşər Əsədin hakimiyyəti zamanı Rusiya ilə Suriya arasında bütün sahələrdə çox güclü münasibətlər var idi. Məhz ona görə də Bəşər Əsəd devrildikdən sonra özü və ailəsi üçün sığınacaq kimi Rusiyanı seçdi. Müxalifətin hakimiyyətə gəlməsi ilə burada vəziyyət və eləcə də Rusiyaya münasibət tamamilə dəyişdi. Rusiya bu ölkədəki hərbi kontingentinin bir hissəsini Suriyadan çıxarmağa məcbur oldu. Hazırda iki bazadan ibarət cüzi rus hərbiçisi bu ölkədə mövcudluğunu saxlamaqdadır. Suriyanın yeni hakimiyyətinin Rusiya ilə bağlı gələcək planlarının hələ müəyyənləşmədiyini demək olar. Baxmayaraq ki, yeni hakimiyyət ilk günlərdə rus qoşunlarının Suriyadan tamamilə çıxarıldığını elan etsə də, sonradan Rusiya ilə münasibətdə mövqe bir qədər dəyişdi. Yəni, yeni Suriya hökuməti İrandan fərqli olaraq Rusiya ilə münasibətləri sona qədər gərginləşdirməkdə maraqlı görünmür. Rusiya ilə danışıqlar Suriyanın yeni rəhbərliyi üçün vacibdir. Ona görə ki, bəzi önəmli məsələlər həll olunmalıdır, xüsusilə Bəşər Əsədin təhvil verilməsi məsələsi var".

Moskvanın Bəşər Əsədi təhvil verib-verməyəcəyi ilə bağlı suala cavab verən politoloq vurğulayıb ki, hazırda bu, mümkün görünmür: "Əsədin təhvil verilməsi Rusiyanın onsuz da ərəb ölkələri arasında aşağı düşmüş nüfuzuna daha da ağır zərbə vura bilər".

Politoloq gələcək Rusiya-Suriya münasibətlərində müəyyən razılaşmaların əldə olunmasını mümkün hesab edib: "Xüsusilə, enerji və ağır sənaye sahəsində Suriya Rusiya ilə əməkdaşlıq etməkdə maraqlı ola bilər. Amma Əl-Şəraa hakimiyyəti ilk növbədə Aİ və ABŞ ilə problemləri həll etməyə çalışacaq. Hazırda ən əsas hədəf Əsəd dövründə tətbiq olunan sanksiyaları aradan qaldırmaqdır. Ondan sonra isə Rusiya ilə münasibətlərə baxılacaq".

**Türkiyə ilə birgə...**

"Son proseslər fonunda Türkiyə Yaxın Şərqdə geosiyasi və geostrateji güc mərkəzinə çevrilib - Ankaranın təşəbbüsü ilə regionda yeni iqtisadi-siyasi nizam formalaşır. Türkiyənin mövqeyi nəzərə alınmadan regionda hər hansı layihənin həyata keçməsi qeyri-mümkündür. Bu baxımdan Moskva Türkiyə ilə münasibətləri kontekstində Yaxın Şərqdə bir çox istiqamətlərdə birgə fəaliyyət göstərəcək," - deyə Ə.İbrahimov qeyd edib ki, hər iki ölkə Suriyada siyasi nizamlanma və sabitləşmə səylərində əməkdaşlıq edə bilər: "Rusiya və Türkiyənin, keçmiş fikir ayrılıqlarına baxmayaraq, Suriyada sülh və təhlükəsizliyin təmin olunması məsələsində ümumi dil tapmaları mümkündür. Xüsusilə, İŞİD, PKK/YPG və digər terror qruplaşmalarına qarşı mübarizədə koordinasiyalı şəkildə əməkdaşlıq edə bilərlər". Ardınca politoloq bildirib: "Türkiyə Rusiya qazının Yaxın Şərq və Avropaya ixracı üçün mühüm enerji mərkəzi olaraq qalır. Onlar "Türk axını" kimi birgə layihələri genişləndirə və regionda yeni enerji dəhlizlərini kəşf də bilərlər".

Ə.İbrahimov hər iki ölkənin İsrail-Fələstin münaqişəsində vasitəçilik səylərinə də toxunub: "Ankaranın HƏMAS və Fələstin Muxtariyyəti ilə güclü əlaqələri var, Moskva isə İsrail də daxil olmaqla bütün tərəflərlə balanslı münasibət saxlayır. Birgə təşəbbüs onların regional təsirini artıra bilər".

*Yunis ABDULLAYEV*

YENİ AZƏRBAYCAN
http://www.yeniazerbaycan.com
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“Pressİnform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Qasid” MMC - 0124931406, 0124938343
F.Ş.Ruhid Hüseynov - 0124349301, 0505357898
“Ziya LTD” MMC - 0124977696, 0503067744

6 aylıq abunə - 79,20 AZN
12 aylıq abunə - 158,40 AZN



# Sevgililər günü, yoxsa...

## “Valentin” necə “müqəddəs”ləşdi...

Fevralın 14-ü dünyanın bir çox ölkələrində “Sevgililər günü” kimi qeyd olunur. Bəzən bu günü “Müqəddəs Valentin günü” adlandıranlar da var. Etiraf edək ki, ildən-ilə bu günü qeyd edənlərin sayı dünyada, həmçinin Azərbaycanda artır. Ancaq insanların böyük əksəriyyəti bu bayramın yaranma tarixi və nə üçün “Müqəddəs Valentin günü” adlandırılması barədə məlumatlı deyil.



## Valentinin “müqəddəsliyi”...

Mənbələrin birinə görə, Roma imperatoru ll Kladius ordu üçün savaşan əsgər tapmaqdan ötrü evliliklərə qadağa qoyur. Səbəb isə romalı kişilərin sevdiklərini və ailələrini tərk etməmək istəyi ilə bağlı idi. Valentin isə Romada rahib idi. Onun kimliyi və ölümü barədə müxtəlif fərziyyələr var. Bunlardan ən geniş yayılmış olanı budur ki, həmin keşiş imperatorun evlənməyi qadağa etməsinə baxmayaraq, əsgərləri qızlarla gizlin görüşdürürdü. İmperator onun bu əməllərindən xəbər tutduqdan sonra Valentini zindana atdırır və 14 fevralda öldürtdürür. Bununla da fevralın 14-ü “Müqəddəs Valentin günü” kimi tarixdə qalır.




## Qədim Roma Luperkaliyası...

Qədim Romada 14 fevral xüsusi əhəmiyyət kəsb edirdi - bu gün Roma “Tanrı” və “Tanrıçaları”nın kraliçası sayılan Junoya hörmətin təcəssümü sayılırdı. Günün sabahı isə Luperkaliya bayramı başlayırdı. Valentin günü Luperkaliya bayramı günü ilə sıx bağlıdır - münbitlik və məhsuldarlıq allahına həsr olunmuş bayram fevralın ortalarına təsadüf edərdi və rəsmən baharın başlanğıcı kimi qeyd edilirdi. Bayramda oğlanlar qutudan qızların adlarını çıxarardılar. Beləliklə, bayram günlərində oğlan adını qutudan çıxardığı qızla sevgili olardı.

## Başqa versiya...

Başqa mənbələrdə isə qeyd edilib ki, Valentin həbsxana rəisinin qızına aşiq olubmuş, ona görə də edam edilib. Katoliklər də iddia edir ki, Valentin xristianlığı təbliğ etdiyi üçün öldürülüb. Ancaq görünəni odur ki, Valentinin Roma tərəfindən müqəddəsləşdirilməsi belə onun əməllərinin üstünü örtə bilməyib.

## “Sevgililər günü”nün ləğv olunduğu ölkələr...

Bəzi Qərb ölkələri “Müqəddəs Valentin günü”nü keçirmir və yaxud səthi yanaşır. Məsələn, hər il bu gündə Rusiyada fərqli kəsimlər arasında küçə davaları baş verir. Universitetlərdə tələbələrin fevralın 14-də təşkil olunacaq şənliklərdə, diskotekalarda iştirakı qadağan edilib. Beləliklə, Valentin günü rus milli dəyərlərinə zidd adlandırılır.

Almaniyada isə bu tarix psixi cəhətdən sağlam olmayanların günü kimi qeyd edilir. İordaniya da “Sevgililər günü”nün qadağan olunduğu ölkələr sırasındadır. Malayziyada qadağan olunan 14 fevral “günü”nü İslamabad Ali Məhkəməsi də Pakistan ərazisində yasaqlayıb. Məhkəmə bu qərarı “Sevgililər günü”nün İslam ənənələri ilə heç bir əlaqəsinin olmadığını əsas gətirərək qəbul edib. Həmin günü nəinki qeyd etmək, hətta KİV-də təşviq və ya reklam etmək belə cinayət hesab edilir.

Özbəkistanda və Türkmənistanda da bu günün qeyd olunması qadağandır. İranda isə bu gün ilə bağlı bütün hədiyyəlik əşyaların satışı və reklamları qadağan edilib.

Səudiyyə Ərəbistanda 2004-cü ildə verilən fətvada “Sevgililər günü”nü Allaha və Qiyamət gününə iman gətirən müsəlmanların qeyd etməmələri söylənib. Fətvada Allahın qəzəbindən qorxanlar üçün bunun bir vəzifə olduğu vurğulanıb.

## “Sevgi günü”

Azərbaycanda “Sevgililər günü” kütləvi şəkildə qeyd edilmir. Amma qeyd edənlər üçün də hər hansı bir qadağa yoxdur. Paytaxtın bəzi kafelərində, gül dükanlarında, küçə ticarətçilərinin piştaxtasında əlvan çiçəklər, müxtəlif suvenirlər və başqa hədiyyə alanlara rast gəlmək olur...

...Sevənlərin və sevginin günü olmur. Bütün günlər və saatlar sevənlərindir. Onu 1 günlə məhdudlaşdırmayın...

*Yeganə BAYRAMOVA*

# Kitab paylaşdıqca fayda verir...

## Beynəlxalq Kitab Bağışlama Günüdür

Kitablar bəzən hisslərimizi ifadə etmək üçün mühüm vasitə rolunu oynayır. Kitab oxumaq qətiyyət, səbr və öyrənmək istəyinin əlamətidir. Kitab oxumaq həm bir şəxs, həm də bir millət üçün nicat əlamətidir. Kitab insanlara danışmağı, yazmağı, həyatı, insanlığı öyrədir.

Kitab üçün buna bənzəyən çoxsaylı ifadələr işlədə bilərik. Çünki kitab həyatımızda xüsusi yeri olan və bizə nə isə izah etməyə həsr olunmuş bir nemətdir. Bəzi insanlar bundan sui-istifadə edirlər. Məsələn, bəzi hallarda hansısa dini və inancları ləkələmək üçün kitabdan istifadə olunur. Maraqlısı odur ki, həmin insanları da kitablar vasitəsilə doğru yola çəkmək mümkündür.




## Kitab ianələri...

Belə bir ifadə var ki, hər insan kitab yaza bilməz, amma hər kəs kitab oxuya bilər. Bu mənada kitablar hər kəsin düşüncəsinə, zövqünə xitab edir. Kitab elə bir məfhumdur ki, paylaşdıqca insanlara daha çox fayda verir. Buna görə də, kitab ianələri çox vacibdir. Çünki hər kəsin kitab almağa büdcəsi olmaya bilər. Ona görə də oxuduğunuz kitabları çox insan oxusun deyə paylaşın...

Yeri gəlmişkən, 14 fevral Beynəlxalq Kitab Bağışlama Günüdür. Bu gün hər kəs oxumaqdan zövq aldığı kitabları bağışlamaqla başqalarının faydalanmasına kömək edə bilər. Bəzi yeni və ya səliqəli istifadə olunmuş kitablar yerli kitabxanalara, yerli məktəbə, vətəndaş cəmiyyətlərinə və ya yerli quruma bağışlana bilər.

Bu gün həm də oxumaq sevgisini yaymaq üçün bir fürsətdir. Bütün dünyada kitabların bağışlanması savadlılığı dəstəkləyə və oxumağa təşviq edə bilər.

## Kitab oxumağın faydaları

Kitab oxumaq diqqəti və konsentrasiyanı yaxşılaşdırmağa kömək edir, təxəyyülü artırır, stresi azaldır, yaddaş gücünü yaxşılaşdırır. Kitab həm də oxumağa həvəsi olan insanlar üçün ən yaxşı hədiyyədir. Kitabların qiyməti də sərfəlidir və diqqətinizi problemlərdən yayındırır, bəzən sizi həyəcanlandırır, dünya haqqında öyrədir və geniş baxış bucağına sahib olmağa kömək edir.

Beynəlxalq Kitab Bağışlama Gününün mənşəyi haqqında dəqiq məlumat yoxdur. Ancaq ehtiyacı olan uşaqlar üçün kitab və ya pul bağışlamağın vacibliyinə görə bu günü qeyd etmək vacibdir. Bu günün yaradılmasında əsas məqsəd uşaqları kitab oxumaq vərdişinə yiyələndirməkdir. Bu mənada Kitab Bağışlama Günü bir çox uşaq üçün bu vərdişi əldə etmək şansı verə bilər. Beynəlxalq Kitab Bağışlama Gününün əhatə dairəsi genişlənməkdə davam edir. Artıq bu gün Avstraliya, Kanada, Cənubi Afrika və bir çox ölkələrdə qeyd olunur.




## Necə qeyd etmək lazımdır?

Ancaq çox təəssüf ki, bir çox ölkələrdə, hətta nə qədər təəccüblü olsa da, inkişaf etmiş ölkələrdə də kitab çatışmazlığı problem olaraq qalır. Məsələn, İngiltərədə uşaqların üçdə birində kitab yoxdur. ABŞ-da yoxsulluq içində yaşayan uşaqların üçdə ikisinin kitabı yoxdur. Bu mənada Beynəlxalq Kitab Bağışlama Günü uşaqların kitablara əlçatanlığını və həvəsini artırmaq məqsədi daşıyan könüllü təşəbbüsdür.

Bu baxımdan bütün dünyada insanlar öz icmalarında ehtiyacı olan uşaqlara kömək etməyin ən yaxşı yollarını nəzərdən keçirir - kitablarin bağışlanmasının vacibliyi haqqında maarifləndirmək üçün sosial şəbəkələrdə fotoşəkillər və fikirlər paylaşılır.

Qeyd edək ki, bayram əsasən İngiltərədə qeyd olunsa da, dünyanın hər yerindən kitabsevərlər hər il bu bayramlara qatılırlar və bir-birlərinə, qurumlara kitab bağışlayaraq bu günü xoş ovqatla keçirirlər.

*Yeganə BAYRAMOVA*



## Teymur Rəcəbov 3-cü yer uğrunda oyunlarda iştirak etməyəcək




Azərbaycan şahmatçısı Teymur Rəcəbov səhhətində yaranan problemlə bağlı ölkə çempionatında mübarizəni davam etdirməyəcək.

Şahmat Federasiyasından AZƏRTAC-a verilən məlumata görə, qrosmeyster bununla bağlı yarışın baş hakimi Lütfiyar Rüstəmova və Təşkilat Komitəsinə müraciət ünvanlayıb.

Şahmatçı sağlamlığında yaranan problemlə bağlı çempionatda 3-cü yer uğrunda oyunlarda iştirak etməyəcəyini bildirib və bunun üzrlü hesab edilməsini xahiş edib.

## Yeniyetmə taekvondoçular turnirdən 6 medalla döndülər




Azərbaycanın yeniyetmə taekvondoçuları Birləşmiş Ərəb Əmirliklərində keçirilən “Fujairah Open” turnirində 6 medal qazanıblar.

Taekvondo Federasiyasından AZƏRTAC-a verilən məlumata görə, bunlardan 2-si qızıl, 1-i gümüş, 3-ü isə bürünc mükafatdır.

Elmira Bayrak (41 kiloqram) və Fuad Həsənov ( +65 kiloqram) bütün rəqiblərinə qalib gələrək fəxri kürsünün ən yüksək pilləsinə qalxıblar. Fidan Muxtarzadə (29 kiloqram) ikinci, Mədinə Aslanlı (29 kiloqram), Rüqəyya Əliyeva (33 kiloqram) və Elmir Səlimov (53 kiloqram) isə üçüncü yeri tutublar.

## Cüdoçumuz “Böyük Dəbilqə” turnirini buraxacaq

Azərbaycan cüdoçusu Turan Bayramov Bakıda keçiriləcək “Böyük Dəbilqə” turnirində iştirak edə bilməyəcək.



Azərbaycan Cüdo Federasiyasının mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, 60 kiloqram çəki dərəcəsində çıxış edən idmançı məşq zamanı aldığı zədə səbəbindən yarışı buraxacaq.

Qeyd edək ki, fevralın 14-16-da Milli Gimnastika Arenasında keçiriləcək “Böyük Dəbilqə”də Azərbaycan 12 çəki dərəcəsində 32 idmançı (23 kişi və 9 qadın) ilə təmsil olunacaq.

## Azərbaycanın stolüstü tennisçiləri finala yüksəliblər




Azərbaycanın stolüstü tennisçiləri Onur Quluzadə ilə Yağmur Məmmədli Türkiyədə təşkil olunan “WTT Youth Contender” turnirində finala yüksəliblər.

Stolüstü Tennis Federasiyasından AZƏRTAC-a bildiriblər ki, U-15 kateqoriyasında çıxış edən idmançılar qarışıq-qoşa mübarizəsində minimum gümüş mükafatı təmin ediblər.

O.Quluzadə - Y.Məmmədli tandemi bu gün keçiriləcək həlledici qarşılaşmada Türkiyə təmsilçiləri ilə üz-üzə gələcək.

Xatırladaq ki, idmançılar yanvar ayında Dohada keçirilən “WTT Youth Star Contender” yarışının qarışıq-qoşa mübarizəsində bürünc mükafata layiq görülmüşdü.

## Kriştianu Ronaldu ötən il ən çox qazanan idmançı olub




2024-cü ildə dünyanın ən çox qazanan idmançıları bəlli olub. AZƏRTAC xarici mediaya istinadən xəbər verir ki, siyahıya Portuqaliya millisinin və Səudiyyə Ərəbistanının “Əl-Nəsr” klubunun ulduz futbolçusu Kriştianu Ronaldu başçılıq edir. 40 yaşlı hücumçu ötən il 260 milyon dollar qazanıb. İkinci pillədə NBA təmsilçisi “Qolden Steyt Uorriors”un basketbolçusu Stiven Körri (153,8 milyon dollar) qərarlaşıb. İlk “üçlüy”ü isə britaniyalı boksçu Tayson Fyuri (147 milyon dollar) tamamlayıb. Sonrakı yerləri isə 135 milyon dollar gəlirlə argentinalı futbolçu Lionel Messi, 133,2 milyon dollarla amerikalı basketbolçu Lebron Ceyms, 133 milyon dollarla braziliyalı futbolçu Neymar, 122 milyon dollarla ukraynalı boksçu Oleksandr Usik, 116 milyon dollarla fransalı futbolçu Kərim Benzema, 110 milyon dollarla onun həmyerlisi və həmkarı Kilian Mbappe, 105,8 milyon dollarla ispaniyalı qolf ustası Con Rahm tutub.

Təsisçi:
Yeni Azərbaycan Partiyası
Baş redaktor:
Alqış HƏSƏNOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
598-37-76, 498-82-21
498-81-24, 498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 4579
Sifariş: 346
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova